AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

19 MAY 2019-cu il BAZAR № 109 (6436) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Kamerun Respublikasının Prezidenti Zati-aliləri cənab Pol Biyaya

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamerun xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 may 2019-cu il.**

## Hüseyn İbrahimovun 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin may ayında Azərbaycanın Xalq yazıçısı Hüseyn Məmmədəli oğlu İbrahimovun anadan olmasının 100 illiyi tamam olur.

Hüseyn İbrahimov yarım əsrdən artıq bir dövrü əhatə edən səmərəli ədəbi fəaliyyəti ilə müasir Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş özünəməxsus yaradıcılıq üslubuna malik simalardandır. Ədibin uğurlu axtarışlarının nəticəsi kimi müxtəlif janrlarda meydana gətirdiyi əsərlərdə müasirlərimizin zəngin mənəvi aləmi dolğun əks etdirilmiş, mədəniyyət tariximizin yetirdiyi bir çox görkəmli simaların işıqlı obrazları parlaq bədii boyalarla təcəssümünü tapmışdır. Uzun illər Naxçıvanın ictimai-siyasi həyatının fəal iştirakçısı olmaqla Hüseyn İbrahimov regionda mədəni mühitin tarixi ənənələrinin qorunub saxlanılması və eləcə də müstəqillik ideallarına sadiq yaradıcı ədəbi qüvvələrin öz potensiallarını lazımınca gerçəkləşdirə bilmələri üçün böyük əmək sərf etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan ədəbiyyatı qarşısında xidmətlərini nəzərə alaraq, Xalq yazıçısı Hüseyn İbrahimovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı Hüseyn İbrahimovun 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2019-cu il.**

## T.A.Qaraşovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Taleh Azay oğlu Qaraşov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”də və 2008-ci il 4 avqust tarixli 804 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 2, maddə 90, N 7, maddə 625, N 11, maddə 996; 2012, N 9, maddə 853, N 11, maddə 1084; 2013, N 2, maddə 124, N 12, maddə 1525; 2014, N 7, maddə 789, N 9, maddə 1053; 2015, N 1, maddə 17, N 3, maddələr 263, 264, N 6, maddə 705, N 8, maddə 908, N 10, maddə 1134; 2016, N 3, maddə 437; N 5, maddə 859, N 6, maddələr 1051, 1072; 2017, N 9, maddə 1633; 2018, N 3, maddə 433, N 6, maddə 1245; 2019, N 1, maddə 73, N 2, maddə 245) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”nin 5.5.6-cı yarımbəndinə “digər orqanların” sözlərindən sonra “(Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla)” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 avqust tarixli 804 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 8, maddə 712; 2010, N 7, maddə 610; 2016, N 1, maddə 71; 2018, N 3, maddə 441) ilə təsdiq edilmiş “Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi Qaydaları”nın 5.3-cü bəndinə “yerli orqanları” sözlərindən sonra “və ya “DOST” mərkəzləri” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 may 2019-cu il.**

# Azərbaycan düşünülmüş siyasətilə beynəlxalq aləmdə seçilən və sayılan ölkədir

## *Ölkəmiz yüksəktempli dinamik innovativ inkişafı ilə dünya iqtisadiyyatına uğurla inteqrasiya olunur və onun ayrılmaz bir parçasıdır*

**Regionların sosial-iqtisadi inkişafına dair üçüncü beşillik proqram uğurla yekunlaşdı və dördüncü Dövlət Proqramı ilə yeni daha bir yüksək mərhələyə qədəm qoyuldu. Beləliklə, daha bir tarixi tərəqqi dövrünə imza atıldı. Bugünkü müasir beynəlxalq iqtisadiyyat sürətli inteqrasiya və əməkdaşlıq yolundadır. Mövcud qloballaşma prosesində bu amil həm ölkələrin sosial-iqtisadi inkişafında, həm də dünyada sülhün, sabitliyin qorunmasında, əməkdaşlığın genişlənməsi və dərinləşməsində çox mühüm rola malikdir. Belə ki, ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərərliliyi və genişlənməsi ölkələrin transmilli iqtisadi əlaqələrində ən zəruri amillərdəndir. Bu da öz növbəsində ölkələrin sosial-iqtisadi inkişafına möhkəm zəmin yaradır. Dövlətlərin müxtəlif sahələrdə münasibətlərinin daim dərinləşməsi və genişlənməsi, müxtəlif sahələri və sektorları əhatə etməsi onların sosial-iqtisadi inkişafına və siyasi sabitliyinə yardım edən əsas şərtlərdən biridir. Buna görə də bütün dövlətlər qarşılıqlı mənafelərə cavab verən beynəlxalq əməkdaşlıq üçün səmərəli transmilli qurumlar yaradılmasında, çoxtərəfli və ikitərəfli əlaqələrdə maraqlıdırlar. Azərbaycan bu istiqamətdə çox uğurlu, düşünülmüş siyasətilə beynəlxalq aləmdə seçilən və sayılan dövlətlərdəndir.**

Müstəqilliyini bərpa etdikdən sonra dünya iqtisadi bazarına karbohidrogen ehtiyatları ilə çıxan ölkəmiz həm nüfuzlu beynəlxalq qurumlarla, həm də dövlətlərarası ikitərəfli əlaqələrdə səmərəli və milli mənafelərə uyğun əlaqələr yaratmaqla ölkələrlə geniş iqtisadi və siyasi münasibətlər qurmağa nail olub. Neftdən gələn gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi real iqtisadiyyatın potensial sahələrinin inkişafına nail olunması və rəqabətədavamlı məhsullarla dünya bazarına inteqrasiya edilməsi hazırkı dinamik inkişafı təmin etdi. Bu gün ölkə yerləşdiyi regionun güclü dövlətidir, iqtisadi, siyasi, mədəniyyətlərarası dialoq mərkəzinə çevrilib. Bu proses dinamik və yüksəktemplidir. İqtisadi inkişafın ilbəil yeni yüksək mərhələyə qalxması regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramında qarşıya qoyulmuş hədəflərə müvəffəqiyyətlə çatmağa imkan verdi və yeni beşillik inkişaf dövrünə uğurla qədəm qoyuldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında 15 ildə aparılan davamlı islahatlar sayəsində dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmadığı barədə deyib: “Bu ilin yanvar ayında 2018-ci ilin yekunlarını müzakirə edərkən mən əminlik ifadə etdim ki, 2019-cu il ölkəmiz üçün uğurlu il olacaq. Biz ötən il keçirilmiş prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyduq. Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atılmışdır, hazırlıq işləri aparılmışdır. Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır”. Bu davamlı, sabit inkişafın sirri siyasi və iqtisadi sahədə islahatların paralel və əlaqəli aparılması, bir-birini tamamlamasından başqa xalqın mənəvi gücündədir. Yəni xalqın dövlətin yürütdüyü siyasəti dəstəkləməsi və reallaşması üçün bütün bacarığını səfərbər etməsidir. Çünki xalq əmindir və inanır ki, dövlət başçısının bütün sahələrdə fəaliyyəti milli mənafelərə əsaslanır. Düzgün, beynəlxalq siyasi-iqtisadi təhlil, əlaqə və əməkdaşlığın genişlənməsi, ölkənin geo-siyasi mövqeyindən istifadə etmək və onu möhkəmləndirmək, sosial layihələri elmi-təcrübi əsaslandırmaq diqqət mərkəzində olan amillərdir. Azərbaycanda gedən inkişafa nəzər yetirdikdə dediklərimizi təsdiq edən ölkə rəhbərliyinin iqtisadiyyatın çoxsahəli və çoxşaxəli inkişafına çalışması dərhal nəzərə çarpır. Həyata keçirilən neft strategiyası ölkənin geosiyasi mövqeyini möhkəmləndirmiş və qeyri-neft sektorunun hərtərəfli inkişafına, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyinin yaradılmasına səbəb olmuşdur. Bu əsasda qeyri-neft sektoruna aid beynəlxalq səviyyəli layihələrin icrası dövlətin qüdrətini, siyasi nüfuzunu artırmaqdadır. Belə ki, ölkələr arasında yaranmış geniş, qarşılıqlı səmərəli əməkdaşlıq iqtisadi dövriyyəyə yüksək impuls verməklə qazanılan uğurları da artırmaqdadır.

Təsadüfi deyil ki, dünyanın ən böyük iqtisadi bazarı Avropa Birliyi ilə əlaqələr çox səmərəli inkişaf edir və daim yeni mərhələyə qalxır. Hazırda Aİ ilə yeni müzakirələr sayəsində bu dialoq strateji məsələləri əhatə etməkdədir. Aydındır ki, iqtisadi inkişaf siyasi nüfuza təsir edən ən mühüm amildir və Avropa Birliyinin 9 üzv ölkəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı vardır. Beləliklə, Azərbaycanın siyasi xəttində mühüm cəhətlərdən biri uğurlu strateji hədəflərə çatmaq üçün uzaqgörən taktika ilə balanslaşdırılmış xarici siyasət yürütməsidir. Təsadüfi deyil ki, Azərbaycanın Avropa, Asiya dövlətləri, həmçinin Türkiyə, İsrail və başqa ölkələrlə səmərəli əlaqələri var.

Alman politoloqu Aleksandr Rar belə hesab edir ki, Rusiya da bu lider dövlətlə əməkdaşlıq etməkdə maraqlıdır. A.Rar “Vestnik Kavkaza” nəşrinə müsahibəsində qeyd etmişdi ki, Moskva praqmatik ovqatdadır, Azərbaycan isə tərəfdarlarını bir-birinə qarşı qoymadan bacarıqla öz siyasətini yeridir. Məsələn, Azərbaycan qazının Avropaya nəql olunması üçün “Nabukko” layihəsindən imtina edilməsi, demək olar ki, Transadriatik qaz kəmərinin (TAP) seçilməsi Bakının Qərb ilə öz münasibətlərini saxlamasına və Rusiyaya dost əli uzatmasına imkan vermişdir. Beləliklə, gənc, öz müstəqilliyini cəmi 28 il əvvəl bərpa etmiş bu dövlət çox böyük müasir çağırışlara uğurla cavab verib və az zamanda analoqu olmayan sosial-iqtisadi inkişaf əldə etmişdir. Uğurun təməli isə Azərbaycanın həm iqtisadi, həm də siyasi sahədə müstəqil siyasət yürütməsidir və bu gün nə iqtisadi, nə də siyasi baxımdan heç kimdən də asılı deyil. Bu amil müasir gərgin çoxvektorlu dünya siyasi meydanında çətin nail olunan fəaliyyətdir, çünki müstəqil siyasət yürüdənlərin kifayət qədər də əlehdarları və düşmənləri də vardır. Son dərəcə böyük uğurdur ki, dövlətin apardığı xarici siyasət dünya birliyi tərəfindən yüksək qiymətləndirilir və böyük rəğbətlə qarşılanır. Xarici siyasətdə ən önəmli amil odur ki, hər bir məsələ ilə bağlı dövlətin prinsipial mövqeyi vardır. İnamla aparılan bu siyasət ölkənin beynəlxalq nüfuzunu daim gücləndirir.




Azərbaycan qlobal iqtisadi və maliyyə böhranına baxmayaraq, siyasi-iqtisadi inkişafını davam etdirən, əlverişli sərmayə qoyuluşu mühitinə malik, dünyanın ən islahatçı və dinamik tərəqqini qoruyan ölkələrindən biridir. Buna görə də ölkəmiz ən islahatçı ölkə kimi dünyanın müvafiq nüfuzlu qurumlarının diqqət mərkəzindədir. Dövlət başçısı bu barədə vurğulayıb: “Əgər əvvəlki illərdə daha çox neft-qaz sektoruna sərmayə qoyuluşu təmin edilirdisə, hazırda biz bunu qeyri-neft sektorunda görürük və bu da aparılan işlərin nəticəsidir. Çünki Azərbaycanda biznes mühiti yaxşılaşır, sərmayə qoyuluşu üçün daha yaxşı şərait yaradılır, həm yerli, həm də xarici sərmayələr dövlət tərəfindən lazımi səviyyədə qorunur. Beləliklə, biz xarici və daxili sərmayəni cəlb etməklə ölkəmizi inkişaf etdiririk. Əlbəttə ki, Azərbaycana sərmayə qoyuluşunun perspektivləri üçün apardığımız islahatlar başlıca rol oynayır. Bildiyiniz kimi, Dünya Bankı “Doing Business” hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Biz il ərzində 32 pillə irəliləmişik və ən islahatçı 10 ölkə sırasında yer almışıq. Əlbəttə, xarici investorlar, eyni zamanda, yerli sahibkarlar bunu görürlər, bilirlər və beləliklə, Azərbaycana sərmayə qoyuluşu prosesi əminəm ki, bundan sonra da təmin ediləcəkdir”. Beləliklə, Azərbaycanda aparılan iqtisadi islahatlar siyasi islahatlarla tamamlanır və bu zəmində reallaşan həm transmilli, həm də ölkədaxili layihələr ölkəmizin inkişafında dinamizmin qorunmasında çox mühüm amildir. Son 15 il ərzində Azərbaycanda iqtisadiyyat sürətlə inkişaf etmiş və belə bir ikinci ölkə olmamışdır. İqtisadiyyat 3,2 dəfə artmışdır. Ölkə Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə dünya miqyasında 35-ci yerdədir.

Qazanılmış müvəffəqiyyətlərin əsasında isə elmi və praktiki əsaslarla ölçülüb-biçilərək hazırlanmış Dövlət proqramları, daxili və xarici siyasi-iqtisadi amillər nəzərə alınmaqla, gələcək perspektivlərə hesablanmış siyasi kurs dayanır. Bu uğurun əsas səbəblərindən biri də keçirilən islahatların bir-birini tamamlaması, reallaşmış layihələrin digərlərinin həyata keçirilməsində əsas olmasıdır. Necə ki, ümummilli lider Heydər Əliyevin neft strategiyasının bəhrəsi olan Bakı-Tbilisi-Ceyhan neft və Baki-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismarından gələn gəlir qeyri-neft sektorunun inkişafına imkan yaratdı, möhkəm təməl oldu. Qeyri-neft sektorunun inkişafı isə iqtisadiyyatın neft amilindən asılılığını azaltdı və həm də çoxsahəli inkişafa səbəb oldu.

Üç Dövlət proqramının uğurla yerinə yetirilməsi sayəsində Azərbaycanın iqtisadi potensialı kifayət qədər güclənmişdir. Təsadüfi deyil ki, on beş il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmış, valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 2018-ci ildə 46 milyard dollara çatmışdır. Həmin müddətdə başqa ölkələrdə iqtisadiyyat bu sürətlə və bu qədər artmamışdır. Bunun başlıca səbəbi isə aparılan islahatlar, həm də mövcud sabitlik, ictimai asayişdir. Əlbəttə ki, sabitlik və iqtisadi sahədə yüksəktempli innovativ inkişaf dövlətin davamlı tərəqqisinin təminatçısıdır. Təbii ki, belə dinamik innovativ inkişaf düşünülmüş siyasət və sabitlik şəraitində baş verir.

Vurğulamaq lazımdır ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin reallaşması da ölkə iqtisadiyyatının inkişafına mühüm dividendlər verməkdədir. AZƏRTAC-ın verdiyi məlumata görə, bu günlərdə Çinin paytaxtı Pekində ikinci “Bir kəmər, bir yol” (Şərq-Qərb dəhlizi-A.C.) Beynəlxalq Əməkdaşlıq Forumu”nun yekunu da bunu təsdiq edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda iştirak edib. Qeyd etmək lazımdır ki, Forumda çıxış edənlər bildiriblər ki, iki qitə dövlətləri arasında mühüm infrastruktur olan bu dəhliz dünyada yeni əməkdaşlıq formatı yaradır. “Bir kəmər, bir yol”un fəaliyyəti qlobal iqtisadiyyatın inkişafına və qədim İpək Yolunun yenidən canlandırılmasına təkan verəcəkdir. Prezident İlham Əliyev Forumun “Qarşılıqlı siyasətin gücləndirilməsi və daha yaxın tərəfdaşlığın qurulması” mövzusuna həsr olunan ikinci və “BMT-nin 2030-cu il Gündəliyini həyata keçirmək üçün yaşıl və dayanıqlı inkişafın təşviqi” mövzusuna həsr olunan üçüncü sessiyasında iştirak edib. Bu sessiyada çıxış edən Prezident İlham Əliyev vurğulayb ki, Azərbaycan və Çin tərəfdaş ölkələrdir. Azərbaycan 2015-ci ildə Çinə dövlət səfəri zamanı “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumunu imzalayıb və infrastrukturun inkişafına mühüm əhəmiyyət verir. Azərbaycanda möhkəm infrastruktur bazası yaradılıb ki, bu da bizim və tərəfdaşlarımızın maraqlarına xidmət edir. Azərbaycan, həmçinin enerji ixrac edən ölkədir və enerji ixracı bizim inkişafımız üçün əsaslı baza və təməl yaratmışdır. Biz enerji resurslarımızdan xalqımızın mənafeyi naminə istifadə etmişik, edirik və davamlı inkişafa nail olmuşuq. Hazırda iqtisadiyyatın şaxələndirilməsi əsas vəzifələrdən biridir. Nəqliyyat infrastrukturu sahəsində Ələt Dəniz Ticarət Limanı və yeni istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti qeyd edilməlidir. Azərbaycanda 15 min kilometrdən çox yol çəkilib, dəmir yolu xətləri modernləşdirilib. Biz xüsusilə Şərq-Qərb nəqliyyat dəhlizində çox fəal iştirak edirik. Həmçinin, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı prosesində iştirak edirik. Azərbaycanda hava nəqliyyatı infrastrukturu yaradılıb. Belə ki, altı beynəlxalq aeroport tikilib. Azərbaycan Xəzər dənizində 260 gəmi ilə ən böyük ticarət donanmasına malik ölkədir. Azərbaycanın nəqliyyat sahəsində potensialı daha da artır və bu, beynəlxalq əməkdaşlıq üçün yaxşı imkanlar yaradır. Ölkədə iqtisadi inkişaf nəticəsində işsizlik və yoxsulluq 5 faiz həddinə salınıb. Nəqliyyat və enerji təhlükəsizliyi milli təhlükəsizliyin vacib elementidir. Təbii ki, bu yüksəktempli inkişaf güclü siyasi iradə və xalqın dəstəyi ilə qazanılır. Dövlət başçısı vurğulayıb ki, bizim çox güclü siyasi iradəmiz var və bu iradənin təməlində Azərbaycan xalqının dəstəyi dayanır. Xalq da bizim bütün təşəbbüslərimizi alqışlayır, bəyənir, dəstəkləyir. Əgər bu dəstək olmasa, biz heç bir iş görə bilmərik.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**

# Yeni Azərbaycan Partiyası rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib

**Mayın 18-də Bakıda Yeni Azərbaycan Partiyasının (YAP) rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədov ölkəmizdə iqtisadi inkişafın davam etdiyini deyib. Bildirib ki, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi sayəsində kənd təsərrüfatı, sənaye və digər sahələrdə yüksək artım müşahidə olunur. Dövlətimizin başçısının son vaxtlarda imzaladığı sərəncamlar və fərmanlar əhalinin müxtəlif sosial təbəqələrinin sosial rifahının yüksəlməsinə səbəb olub.

Ə.Əhmədov deyib ki, məcburi köçkünlər dövlətimizin daim diqqətindədir. Bu təbəqədən olan insanlar üçün tikilən evlərin sayı yenə də artırılacaq.

Baş nazirin müavini qeyd edib ki, Azərbaycan dövlətinin imkanları yüksəldikcə bu kimi sosialyönümlü tədbirlər daha da artırılacaq.

Azərbaycanın qazandığı uğurları gözü götürməyən qüvvələr olduğunu deyən YAP sədrinin müavini qeyd edib ki, bu dairələrin qarayaxma kampaniyasının qarşısı alınmalıdır. Buna görə də vətəndaşlar, o cümlədən partiyamızın üzvləri həyata keçirilən dövlət siyasətinin uğurlarını daha geniş şəkildə təbliğ etməlidirlər.

**AZƏRTAC**

# Bakıda “Gənclər təşkilatları Dayanıqlı İnkişaf Məqsədləri naminə” mövzusunda konfrans keçirilib

**Mayın 18-də ADA Universitetində Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (GTMŞ) təşəbbüsü ilə “Gənclər təşkilatları Dayanıqlı İnkişaf Məqsədləri naminə” mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, GTMŞ-in Gənclər Fondunun dəstəyi ilə reallaşdırdığı layihənin məqsədi BMT-nin “2030-cu il İnkişaf Gündəliyi”nə və 17 Dayanıqlı İnkişaf Məqsədinə (DİM) nail olunması yönündə görülən işlərə töhfə vermək, gənclər təşkilatları nümayəndələrinin DİM haqqında biliklərini artırmaq, gənclər təşkilatlarının bu istiqamətdəki fəaliyyətinin planlaşdırılmasıdır.

Şuranın sədri Məryəm Məcidova konfransda çıxış edərək daha yaxşı gələcək üçün yoxsulluğu aradan qaldırmaq, bərabərsizliklərə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq məqsədilə bütün səylərin səfərbər olunmasının və cəmiyyətin həmrəylik nümayiş etdirməsinin vacibliyini vurğulayıb. M.Məcidova bu baxımdan #heçkəskənardaqalmasın həştəqi ilə sosial şəbəkələrdə geniş məlumatlandırma işinin aparıldığını vurğulayıb. Qurumun sədri deyib ki, Bakıda və regionlardakı müxtəlif gənclər təşkilatlarında, Gənclər evlərində fəaliyyət göstərən fəal və təşəbbüskar gənclər bu işə mühüm töhfə verirlər. Layihənin davamlılığının təmin edilməsi məqsədilə gənclər təşkilatlarının nümayəndələrinin iştirakı ilə təlimlər keçiriləcək.

BMT-nin İnkişaf Proqramının DİM üzrə eksperti Delavar Barekzai “Dayanıqlı gələcəyin üçün fikrini bildir!” mövzusunda keçirilən onlayn sorğunun nəticələrini elan edib.

Sonra “Dayanıqlı İnkişaf Məqsədlərinə sən də qoşul!” adlı videoçarxın təqdimatı olub.

Konfransda Baş Nazirin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov gənclər təşkilatlarının qlobal layihələrdən olan Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqədar səylərini birləşdirməsindən məmnunluğunu ifadə edib. Baş Nazirin müavini deyib ki, Azərbaycan Minilliyin İnkişaf Məqsədlərinin davamı olaraq, 2015-ci ildə BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən yeni qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması ölkəmizlə BMT arasında əməkdaşlığın inkişafında növbəti əhəmiyyətli addımdır. Azərbaycan Hökuməti BMT-nin nümayəndəliyi ilə bu sahədə səmərəli əməkdaşlıq edir və DİM-ə nail olmaq üçün gənclərimizin potensialından istifadə edərək bu prosesə dəyərli töhfələr verir.

Əli Əhmədov diqqətə çatdırıb ki, Azərbaycan Hökuməti DİM-in həyata keçirilməsində üzərinə düşən bütün vəzifələri lazımi səviyyədə yerinə yetirir. Azərbaycan əhalisinin 45 faizi 30 yaşadək olan insanlardır. Gənclərimizin qlobal layihənin həyata keçirilməsində iştirakı onların Azərbaycanın inkişafına töhfə verməkdən kənarda qalmadıqlarını göstərir. Azərbaycanın sürətli yüksəlişi, inamlı gələcəyi gənclərimizin bu proseslərə yaxından iştirakını şərtləndirir. Onların sosial-iqtisadi tərəqqidə yaxından iştirakı isə ümumi inkişafa əlavə töhfə verir.

“Dünya əhalisinin artımı köç problemini də aktual edir. Azərbaycan da bu problemdən əziyyət çəkir. Çünki əhalimizin 1 milyondan çoxu Ermənistanın hərbi təcavüzü nəticəsində öz ölkəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu problemlərin həlli bəşəriyyətin, dövlətlərin qarşısında duran vacib vəzifələrdir”, - deyə Əli Əhmədov vurğulayıb.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib ki, Dayanıqlı İnkişaf Məqsədlərindən biri də gender bərabərliyidir. Azərbaycanda bu istiqamətdə mühüm işlər görülür. Azərbaycanda qadınların cəmiyyətdə xüsusi yer tutması, dövlətin inkişafında yaxından iştirakı diqqət mərkəzində saxlanılır. Çünki əhalimizin yarısını qadınlar təşkil edir. Əsas məqsədlərdən biri qadınların rəhbər vəzifəyə seçilməsinə inamı artırmaqdır. Azərbaycanda təhsil, mədəniyyət və səhiyyə sahəsində çalışanların çoxu qadınlardır. Beynəlxalq təşkilatların araşdırmalarına görə, Azərbaycanda gender bərabərliyinin təmin olunmasında ciddi irəliləyişlər əldə edilib. Bu o deməkdir ki, Azərbaycan cəmiyyəti gender bərabərliyi anlayışını çox yaxşı dərk edir. Bu istiqamətdə maarifləndirmə işi daha da gücləndirilməlidir.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev qeyd edib ki, son vaxtlar Azərbaycanda qəbul olunan Dövlət Proqramlarında DİM də əksini tapıb. Biz bu hədəflərə nail olmağa çalışırıq. Bu illər ərzində ölkəmizdə DİM-in təbliği istiqamətində əhəmiyyətli işlər görülüb.

BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandro Frakassetti, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Faiq Məmmədov və başqaları çıxış edərək DİM-in ölkəmizdə və dünyada inklüziv, dayanıqlı və möhkəm əsaslı gələcək qurmaq üçün birgə razılaşdırılmış səylər göstərmək üçün ciddi çağırış olduğunu bildiriblər. Qeyd edilib ki, ölkəmizdə gənclərimiz keyfiyyətli təhsil, ekoloji, sosial layihələr və digər məqsədlər üzərində çalışırlar. Bu sahədə gənclərin maarifləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Konfrans üç moduldan ibarət olub. Birinci hissə Dayanıqlı İnkişaf Məqsədləri haqqında iştirakçıların məlumatlılıq səviyyəsinin artırılması və 9 min gəncin qatıldığı sorğunun nəticələrinin təqdimatına həsr edilib. BMT-nin “2030-cu il İnkişaf Gündəliyi”nin həyata keçirilməsinə gənclərin daha çox cəlb edilməsi üçün atılan addımlardan ibarət olan bu hissə yaxşı səhiyyə və rifah, keyfiyyətli təhsil, layiqli əmək və iqtisadi artım məqsədlərini əhatə edib. İkinci hissədə DİM-ə çatmaq üçün gənclər təşkilatlarının fəaliyyət planlaması, üçüncü hissədə isə yerli və beynəlxalq təlimçilər və spikerlərin, mütəxəssislərin çıxışı təşkil edilib.

Sonda Dayanıqlı İnkişaf Məqsədlərinin milliləşdirilməsi haqqında təqdimat olub.

**AZƏRTAC**

# “Azərsu” ASC-nin sədri Beyləqanda vətəndaşları qəbul edib

**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Beyləqan şəhərində Beyləqan və Xocavənd rayonundan olan sakinləri qəbul edib.**



ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl qurumun sədri Qorxmaz Hüseynov və Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Beyləqan Sukanal İdarəsinin inzibati binasında keçirilən qəbulda Beyləqan və Xocavənd rayonlarından olan 44 vətəndaşın müraciət və şikayətlərinə baxılıb. Müraciətlər əsasən içməli su və kanalizasiya xətlərinin çəkilməsi, içməli sudan əziyyət çəkən kəndlərin su təchizatının yaxşılaşdırılması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən “Azərsu” ASC-nin sədri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu, müraciətlərinə baxılması üçün rahat, əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# Dövlət Komitəsində Laçın rayonunun işğalının 27-ci ildönümü ilə bağlı tədbir keçirilib

**Mayın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Laçın rayonunun Ermənistan silahlı birləşmələri tərəfindən işğalının 27-cı ildönümünə həsr olunan anım tədbiri keçirilib.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, Laçının Azərbaycanın füsunkar guşələrindən biri olduğunu və strateji mövqedə yerləşdiyini diqqətə çatdıran Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev rayonun Ermənistan silahlı dəstələri tərəfindən işğalına şərait yaradan amillərdən danışıb, ermənilərin xalqımızın başına gətirdiyi faciələri yada salıb. Bildirib ki, həmin dövrdə ölkə hakimiyyətinin səriştəsiz fəaliyyəti və xəyanətkarlığı ağır nəticələrə səbəb olub. 1992-ci il mayın 18-də Laçın rayonunu işğal etməklə Ermənistan Dağlıq Qarabağla birbaşa əlaqə yaradıb və onun ətrafındakı əraziləri ələ keçirmək imkanı qazanıb. Dünya birliyi işğalçıya hələ də kifayət qədər təsir göstərmir, BMT-nin qətnamələri yerinə yetirilmir. Bununla belə, Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan heç vaxt işğalla barışa bilməz və ərazi bütövlüyünün bərpasına nail olmaq üçün bütün imkanlardan istifadə edəcəkdir. Laçınlıların da doğma yurda qayıdacaqlarını ümidlə gözlədikləri, dövlətimizin başçısının bu məqsədlə apardığı siyasəti dəstəklədikləri bildirilib.

Rayonun məcburi köçkün əhalisinin həyat səviyyəsinin, sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlərin həyata keçirildiyi vurğulanıb. Prezident İlham Əliyevin tapşırığı ilə onların daha çox məskunlaşdıqları Ağcabədi rayonu ərazisində növbəti yaşayış məhəlləsinin salınmasına hazırlıq görüldüyü diqqətə çatdırılıb.

Birinci vitse-prezident xanım Mehriban Əliyevanın məcburi köçkünlərin, o cümlədən laçınlıların problemlərinin həllinə həssaslıqla yanaşdığı, bu sahədə həyata keçirilən layihələrin icrasını nəzarətdə saxladığı qeyd edilib.

Milli Məclisdə Laçın rayonunu təmsil edən deputat, Məcburi Köçkünlərin Sosial İnkişafı Fondunun direktoru Mahir Abbaszadə, laçınlı ağsaqqallar Tapdıq Abbasov, Əmirxan Zeynalov, Qəzənfər Hüseynov, Möhübbət Həsənov, Varaşil Məmmədov, Laçında ərazi özünümüdafiə batalyonunun qərargah rəisi olmuş Rafiq Nağıyev, Qarabağ döyüşlərinin iştirakçıları Babək Aslanov, Muxtar Həşimov, Çingiz Abbasov, Habil Muradov, İsgəndər Qasımov, Laçın rayon 40 nömrəli tam orta məktəbin direktoru Aygün Cabbarova, Aprel döyüşlərinin iştirakçısı Vüqar Abdüləzimov və başqaları tədbirdə çıxış edərək, rayonun tarixi keçmişindən, əhalinin təcavüzkarlara göstərdiyi müqavimətdən, torpaqların müdafiəsi uğrunda şəhid olan həmyerlilərinin qəhrəmanlıqlarından danışıb, məcburi köçkünlərə dövlət qayğısının əhəmiyyətindən söz açıb, işğala tezliklə son qoyulacağına inamlarını ifadə ediblər.

Tədbirin sonunda Laçın haqqında “Əsirlikdə qala qalmaz” filmi nümayiş olunub.

**AZƏRTAC**

# Azərbaycan-Fransa parlamentlərarası əlaqələri müzakirə olunub

**Xarici işlər naziri Elmar Məmmədyarov Fransaya işgüzar səfəri çərçivəsində bu ölkənin Milli Assambleyasının vitse-prezidenti Karol Büro-Bonar və Milli Assambleyada Azərbaycan-Fransa dostluq qrupunun prezidenti Pyer-Alan Rafan ilə görüşüb.**



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Fransa arasında parlamentlərarası əməkdaşlığın hazırkı səviyyəsi, o cümlədən siyasi, iqtisadi, mədəniyyət və digər sahələrdə ikitərəfli əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb və iki ölkə arasında müxtəlif səviyyələrdə qarşılıqlı səfərlər mübadiləsinin vacibliyi qeyd olunub.

Tərəflər Azərbaycan-Fransa dostluq qrupunun fəaliyyətinin iki ölkə arasında əməkdaşlığın inkişafına böyük töhfə verdiyini vurğulayaraq, bundan sonra da münasibətlərin sürətlə inkişaf edəcəyinə ümidvar olduğunu bildiriblər.

Görüş zamanı, həmçinin Azərbaycanla Fransa arasında gündəlikdə duran cari məsələlər barədə tərəflər arasında müzakirələr aparılıb.

**AZƏRTAC**

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Laçının işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb

**Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb.**

Bəyanatı AZƏRTAC-a şərh edən “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin sədr müavini, professor Elçin Əhmədov bildirib ki, Ermənistan dövlətinin yürütdüyü işğalçılıq siyasəti artıq 30 ildir dünya ictimaiyyətinin gözü qarşısında həyata keçirilir. XX əsrin 80-ci illərinin sonunda Ermənistan yenidən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ bölgəsinə dair əsassız ərazi iddiaları irəli sürdü. Bunun ardınca, Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Azərbaycanın suverenliyini kobud surətdə pozaraq Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi.

1988-1992-ci illərdə Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Dağlıq Qarabağda azərbaycanlılar yaşayan 30-dan çox yaşayış məntəqəsini işğal etdi. 1992-ci il fevralın 26-da bütün dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə seçilən Xocalı soyqırımı isə bu təcavüzkar siyasətin ən qanlı və yaddaşlardan silinməyən səhifəsi olub.

1992-ci il mayın 8-də Azərbaycanın Dağlıq Qarabağ bölgəsi Şuşa şəhərinin işğalı ilə bütünlüklə zəbt edildikdən az sonra, mayın 18-də Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan kənarda yerləşən qədim Azərbaycan şəhəri Laçını da işğal etdilər. Nəticədə 1835 kvadratkilometr ərazisi, 1 şəhər və 120 kəndi olan Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Laçının işğalı müharibənin Dağlıq Qarabağın hüdudlarından çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyük olduğunu göstərdi. Ermənilərin “humanitar dəhliz” adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi. Laçının işğalı nəticəsində rayonun əhalisi bütünlüklə etnik təmizləməyə məruz qalmış və hazırda 77 mindən çox əhali öz doğma torpağından məcburən köçkün düşərək Azərbaycanın müxtəlif rayonlarında məskunlaşmışlar.

Hazırda Azərbaycanın işğal olunmuş ərazilərində, o cümlədən Laçın rayonunda Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyətlər, məskunlaşdırma siyasətinin aparılması və demoqrafik tərkibin qəsdən dəyişdirilməsi, xüsusilə Azərbaycan xalqına məxsus maddi-mədəni irsin talan edilməsi bütün beynəlxalq və humanitar hüququn pozulması deməkdir.

İşğal nəticəsində Laçın rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilib, yandırılıb, dağıdılıb və məhv edilib. Tarixi və memarlıq abidələrindən Hoçaz kəndindəki mağara-məbəd (V əsr), Cicimlidəki Məlik Əjdər türbəsi (XIV əsr), Minkənddəki XV əsr məbədi, Qarıqışlaqda Dəmirovlu pir məbədi, Bülövlük kəndinin şimalındakı qədim Kişpəyədə Alban məbədi, Piçənisdə Alban məbədi, Kosalar kəndindəki Ağoğlan qəsri (IX əsr), Adsız türbə (XVII-XVIII əsrlər), Şeyx Əhməd türbəsi (XIX əsr), Qarıqışlaq kəndindəki məscid (1718), Malxələf kəndindəki Xəlifə türbəsi (XVII əsr), Hüsülü kəndində Həmzə Sultan sarayı (1761), Həkəri çayı üzərindəki körpü (XVIII əsr), Ağoğlan çayı üzərindəki məbəd (XIX əsr), Minkənd kəndindəki Birtağlı və İkitağlı körpülər (XIX əsr), Güləbirddəki türbə, eləcə də yüzlərlə tarixi və memarlıq abidələrimiz talan edilib, dağıdılıb və mənimsənilib.

Ümumilikdə, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın tarixi, memarlıq və dini abidələri, xüsusilə, 600-dən çox tarixi və memarlıq abidəsi, onlardan 144 məbəd və 67 məscid Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə dağıdılıb. Bununla yanaşı, 40 min eksponatın qorunduğu 22 muzey, 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilib, o cümlədən Azərbaycanın tarixi irsinə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılıb.

XX əsrin sonunda monoetnik dövlət yaratmağa nail olan Ermənistanın təcavüzü nəticəsində 1992-1993-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun hüdudlarından kənarda yerləşən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları zəbt edilib və hazırda Azərbaycan ərazisinin 20 faizdən çox hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Ermənistanın hərbi təcavüzü nəticəsində bu ərazilər etnik təmizləməyə məruz qalıb, Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox azərbaycanlı öz doğma torpağından məcburən köçkün düşüb. Bütün dövrlərdə olduğu kimi, 1988-1993-cü illərdə Ermənistanın həyata keçirdiyi bu işğalçılıq siyasəti nəticəsində 20 min azərbaycanlı həlak olub, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olub.

Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bir daha təsdiqlənir, işğalçı qüvvələrin zəbt etdikləri Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxması tələb edilir. Ancaq BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərə baxmayaraq, indiyədək Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından münaqişə ölkəmizin ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmayıb.

Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 27-ci ildönümündə Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin 80 mindən çox, o cümlədən Laçın rayonunun 77 mindən çox olan azərbaycanlıları beynəlxalq birliyi Azərbaycan xalqına qarşı bu gün də davam edən təcavüz hərəkətlərinə obyektiv siyasi-hüquqi qiymətin verilməsi üçün ölkəmizin haqlı mövqeyini müdafiə etməyə, tarixi, memarlıq və dini abidələrimizin məqsədyönlü şəkildə dağıdılması, talan edilməsi və mənimsənilməsinə, eləcə də bu işğala son qoyulmasına çağırır.

“Hesab edirik ki, münaqişənin ədalətli həlli Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması haqqında BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamələrin icra edilməsindən, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və ətraf yeddi rayonundan məcburi köçkün düşmüş azərbaycanlıların doğma torpaqlarına qayıtmasından və ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasından sonra mümkündür. Yalnız bu halda iki ölkə arasında normal qonşuluq münasibətlərinin qurulması, regionda davamlı və ədalətli sülh təmin oluna bilər”, - deyə bəyanatda qeyd edilir.

**AZƏRTAC**

# “Xəmsə”nin üçüncü poemasının yeni nəşri

**Nizami “Xəmsə”sinin Azərbaycan Respublikasının Əməkdar rəssamı Fəxrəddin Əli Vəli oğlunun tərtibatında beş cilddə nəzərdə tutulmuş yeni nəşrinin üçüncü cildi də işıq üzü görmüşdür (2018). Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadənin Azərbaycan ədəbiyyatı və xalqımızın mənəvi irsinə olan sayğı və diqqəti sayəsində geniş oxucu kütləsinə ərməğan edilən bu nəşrlər Nizami sənətinin öyrənilməsi və təbliği sahəsində atılan uğurlu bir addım olub, bizi böyük şairimizin yüksək ideallarına daha da yaxınlaşdırır. Dahi sənətkarın getdikcə daha da doğmalaşan ölməz yaradıcılığı öz aktuallığını artıraraq həyatın qarşıya çıxardığı problemlərlə daha yaxından səsləşir.**

Nizaminin Şərq ictimai-bədii fikrinin inkişafında orijinal mərhələ təşkil edən zəngin irsi milli və coğrafi sərhədləri aşaraq Azərbaycan hüdudlarından kənarda da şöhrətlənmiş, məhəbbətlə oxunmuş, öyrənilmiş, təqdir olunaraq izlənilmişdir. Nizami haqqında görkəmli şəxsiyyətlər fikir söyləmiş, şairin ənənələrini davam etdirən məşhur söz ustaları əsərlərində Gəncə ustadının tərifinə xüsusi bölmələr həsr etmiş, sələflərinin sənət dühasını alqışlamışlar.

Şairin dünya mədəniyyətinə bəxş etdiyi möhtəşəm sənət abidəsi olan “Xəmsə” əsrlər boyu istedadlı xəttatlar tərəfindən köçürülərək əlyazmalar şəklində geniş yayılmış, Bakı, Daşkənd, Təbriz, Tehran, İstanbul, Dehli, London, Oksford, Paris və başqa mədəniyyət mərkəzlərinin kitabxanalarının arxiv və əlyazma xəzinələrini bəzəmişdir.

Yaxın Şərqdə hələ XIII əsrdən başlayaraq tarix, coğrafiya kitabxanalarında şairin yaradıcılığından bəhs olunmuş, Məhəmməd Ovfidən tutmuş Hindistan, İran, Özbəkistan, Türkiyə və Azərbaycanda yazılan təzkirələrdə Nizamiyə və onun yaradıcılığına xüsusi yer ayrılmışdır. Nizami irsinin öyrənilməsi ilə bağlı fars, rus, türk, hind alimləri və Qərbi Avropa tədqiqatçıları maraqlı araşdırmalar aparmışlar.

Bununla belə, Nizami yaradıcılığı şairin öz vətənində daha böyük məhəbbətlə, daha ətraflı öyrənilmiş, şairin öz əsərləri və tarixi məlumatlara istinadən yazılmış elmi tərcümeyihalı Azərbaycanda ərsəyə gəlmiş, Nizami əsərlərinin nəşri, tədqiqi və təbliği işlərində, xüsusilə şairin soykökü, doğulduğu yer, yaradıcılığının doğma xalqın şifahi ədəbiyyatı, Azərbaycan folkloru ilə çoxcəhətli bağlılığı, əsərlərində türk əhval-ruhiyyəsinin aydın əksi və başqa bu kimi səciyyəvi xüsusiyyətlərinin aşkar edilib öyrənilməsində Azərbaycan nizamişünaslığının böyük əməyi olmuşdur.

Nizami əsərlərinin hələ XVII əsrdən başlayaraq Hindistanda, İranda, Qərbi Avropada nəşr olunmasına baxmayaraq, “Xəmsə”nin elmi-tənqidi mətninin mükəmməl nəşrinə Azərbaycanda başlanılmışdır. Şairin 800 illik yubileyi ərəfəsində görkəmli şərqşünas alim Y.E.Bertelsin rəhbərliyi və akademik Ə.Əlizadənin yaxından iştirakı ilə keçmiş SSRİ-nin Elmlər Akademiyası tərəfindən “Xəmsə”nin o dövrdə məlum əlyazmalarından istifadə yolu ilə (“Yeddi gözəl” istisna olmaqla) tənqidi mətni yaradılmışdır. Öz mükəmməlliyi ilə bir çox ölkələrin arxivlərində saxlanılan “Xəmsə”lərdən fərqlənən bu mətn əsasında müxtəlif illərdə şairin əsərlərinin Azərbaycan, rus dillərinə poetik tərcümələri yaranmış, sonradan bu tərcümələr orijinalla yoxlanılaraq redaktə edilib, dəfələrlə nəşr olunmuşdur.

Qeyd olunduğu kimi, çap olunan üçüncü cild Nizami “Xəmsə”sinin “Leyli və Məcnun” poemasına həsr olunmuşdur. Məlum olduğu kimi, Nizami özünə qədər Yaxın Şərqdə geniş yayılmış Əbu Məhəmməd Abdulla ibn Quteybənin (818-829) “Əş-şeir vəş-şuəra” (Şeir və şairlər), Əbul Fərəc İsfahaninin “Kitabul-əgani” (Nəğmələr kitabı) antologiyalarında, Məcnunun lirik şeirlərini toplamış Əbubəkr əl-Valibinin “Əxbarül-Məcnun və əşaruhu” (Məcnunun əhvalı və şeirləri) əsərində əksini tapmış bu mövzunun Yaxın Şərq xalqları içərisində pərakəndə halda yayılmış xalq yaradıcılığı nümunələrini vahid süjet ətrafında toplayaraq sələflərindən əsaslı şəkildə fərqlənən ölməz sənət abidəsi ucaltmışdır.

Nizami 1188-ci ildə Şirvanşah Axsitanın sifarişi ilə qələmə aldığı poemanın “Kitabın yazılmasının səbəbi” adlanan bölməsində məktubla ona müraciət edən şahın şairdən Məcnun ilə Leyli məhəbbəti haqqında yeni bir eşq dastanı yaratmaq istədiyi bildirilir. Şah Nizamiyə bu əsəri fars və ərəb sözləri ilə zinətləndirməyi tövsiyə edərək:

*Torki sifəte vəfaye-ma nist,*
*Torkanə soxən səzaye-ma nist.*
*An kəs nəsəbe-bolənd zayəd,*
*Ura soxəne-bolənd bayəd.*
*(Türklük bizim vəfa sifətimiz deyil,*
*Türksayağı söz bizə layiq deyil.*
*Yüksək nəsəbdən doğulan adama,*
*Yüksək söz lazımdır).*

- deyirdi.

Ədəbiyyatşünaslıqda şahın dilindən deyilmiş bu sözlər birmənalı şərh olunmur. Görkəmli nizamişünas V.Dəstgirdi şairin bu misralarında “Şahnamə” müəllifi Firdovsi ilə Sultan Mahmud arasındakı əhvalata işarə etdiyini bildirir. Türk əsilli Sultan Mahmudun vədinə əməl etməyib böyük İran şairi Firdovsiyə “Şahnamə” üçün vəd elədiyi mükafatı vermədiyini nəzərdə tutduğunu göstərir.

Tədqiqatçıların digər bir qismi isə bu misralarını Axsitanın Nizami əsərlərində açıq-aydın duyulan türk əhvali-ruhiyyəsinə, şairin türkmənşəli sözlərdən faydalandığına etirazının ifadəsi kimi izah edirlər.

Bu da məlumdur ki, “Xəmsə” qəhrəmanları, o sıradan şairin ərəb zəminində yaratdığı Leyli və Məcnun obrazları hələ Nizamidən əvvəl Yaxın Şərq poeziyasında geniş yayılmış, Azərbaycan ədəbi mühitində də məşhurlaşmışdılar. Qətran Təbrizi, Xaqani Şirvani və başqa XI-XII əsr şairləri “Xəmsə” qəhrəmanları və onlarla bağlı əhvalatları tez-tez xatırlamışlar. Nizaminin yaşca böyük müasiri Əfzələddin Xaqani qəsidələrindən birində bu məsələyə toxunaraq:

*Dastan şod eşq Məcnun dər cəhan,*
*Əz cəhan in dastan xahəm qozid.*
*(Məcnun eşqi cahanda dastan (məşhur) olmuşdur,*
*Dünyadan bu dastanı seçəcəyəm)*

- deyir.

Şairin başqa bir mədhiyyəsində saray əyləncə məclislərinin təsvirində belə bir beytlə rastlaşırıq:

*Çəng bin, çun nağeyi - Leyli və zar*
*Bange - Məcnun hər zaman bər xaste.*
*Çəngə bax, Leylinin nağəsi (dişi dəvəsi) kimi ağlayır,*
*(Ondan) hər zaman məcnun səsi (fəryadı) qalxır.*

XI-XII əsr klassik poeziyamızda tez-tez özünü göstərən belə nümunələr mövzunun Azərbaycanda geniş yayılaraq Nizami yaradıcılığının da qaynaqlarından birinə çevrildiyini təsdiq edir. Axsitanın məktubundan gətirilən beytlər şahın şairi sadə xalq içərisində dolaşan şifahi xalq ədəbiyyatı nümunələrindən çəkindirmək məqsədi daşıya bilərdi.

Hər halda Nizami şahın türklüklə bağlı bu mülahizəsini böyük narazılıq hissilə qarşılamışdır. Ana dilinə olan həqarətli münasibət onu hiddətləndirmiş, bəlkə də elə bu səbəbdən şahın təklifini qəbul etmək istəməmişdir.

*Qulluq halqasına düşdü qulağım,*
*Qan vurdu beynimə, əsdi dodağım.*
*Nə cürətim vardı əmrdən qaçam,*
*Nə də gözüm vardı xəzinə açam.*
*Ömrüm viran oldu, solub saraldım,*
*Bu əmrin önündə cavabsız qaldım.*
*Sirrimi deməyə bir məhrəm hanı?*
*Ona söyləyəydim bu macəranı.*

Şair sevinc və şadlıqdan uzaq, cansıxıcı bir mövzuda əsər yazmağın çətinliyindən şikayətlənsə də, yeganə oğlu Məhəmməd Nizaminin arzusuna qarşı çıxa bilmir. Mövzu ilə bağlı ərəb yazılı məxəzləri ilə yanaşı, dastan qəhrəmanları haqqında Azərbaycanda yayılmış rəngarəng xalq ədəbiyyatı nümunələrindən də bəhrələnərək çox qısa bir müddət ərzində (dörd ayda) dərin həyati-fəlsəfi məna və poetik təravətini əbədi saxlayan möhtəşəm eşq dastanı yaradır.

İnsan adının yüksəkliyi, onun cəmiyyətin inkişafındakı əvəzsiz yeri, zəka və qüdrətindən söz açan şair hələ məzmuna keçməzdən əvvəl onu öz şərafətini dərk etməyə, həmişə fəal olmağa, aramağa, axtarmağa, həyatın, kainatın sirlərini öyrənməyə çağırır. Nizami şeirində hələ “Sirlər xəzinəsi”ndən başlayaraq “Xəmsə”də xüsusi yer tutan gənclik, nəsillərin qarşılıqlı münasibəti problemi şairin bu poemasında da ətraflı işıqlanır. Gəncliyi cəmiyyət üçün yararlı olmağa sövq edən şair bilavasitə oxucuya üz tutaraq ona öz ülviyyətini dərk etməyi, boş, keçici işlərdən əl çəkməyi, yüksək arzularla yaşamağı öyrədir:

*Təbiət quranda xilqətimizi,*
*Başqa səhifədə yazmışdır bizi.*
*Anlayıb, düşünək hər şeyi gərək*
*Hər sirri açmaqda hünər göstərək*
*Yerləri, göyləri öyrənək bir-bir*
*Qalmasın bizimçün açılmamış sirr.*

Əsərdə şairin 14 yaşlı oğlu Məhəmmədə nəsihəti onun gələcək nəslə olan diqqət və qayğısının bədii əksi kimi xüsusilə diqqətəlayiqdir.

*Sən aslanlar kimi keç cəbhələrdən,*
*Yalnız hünərinin balası ol sən.*
*Səadət kamalla yetişir başa,*
*Xalqa hörmət elə ədəblə yaşa.*

Nizaminin belə əxlaqi görüşləri içərisində “Az danışmağın gözəlliyi”, dostluq, səmimi yoldaşlıq, dünyaya uymamaq şöhrətə aludəçilik göstərməmək, insanlıq ləyaqətini alçaltmamaq, zülmə qatlaşmamaq və başqa həyati görüşləri bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

İnsanpərvər şair xalqı sevməyi, ona ürəkdən xidmət etməyi, həmişə xalq işinə yararlı olmağı təbliğ edir:

*Çalış işıq kimi ap-ağ olasan!*
*Pisdən və yaxşıdan uzaq olasan!*
*Su kimi aləmə həyat ver, can ver,*
*Hər rəngə uyğunlaş dərdə dərman ver.*

Yaxud:

*Bağışla atını sən get piyada,*
*Sillələr yesən də, mərd ol dünyada.*
*Bacarsan hamının yükünü sən çək,*
*İnsana ən böyük, şərəfdir kömək.*
*Sən də əldən düşüb yorulsan əgər,*
*Sənin də yükünü bütün el çəkər.*

“Leyli və Məcnun” məhəbbətin qüdsiyyəti, insan eşqinin əzəməti haqqında yazılmış poemadır. Poemanın qəhrəmanları Leyli və Məcnun bir-birini saf, təmiz bir məhəbbətlə sevirlər. Ancaq gənclərin qarşısında keçilməsi mümkün olmayan maneələr dayanır. Bu maneələr və hər şeydən əvvəl qəhrəmanla onu əhatə edən mühit arasındakı uyğunsuzluq sevgililəri ayırır. Qeys Məcnun adlandırılaraq təbiətin saf ağuşuna çəkilir, Leyli isə sevmədiyi bir adama ərə verilir. Əsər hər iki aşiqin ölümü ilə başa çatsa da, onların məhəbbəti məğlub olmur. Nizami pak, təmiz eşqin bu mənəvi qələbəsini özünün yüksək bəşəri ideallarının şərhi ilə birlikdə ifadə edir.

“Leyli və Məcnun” mövzusunun Şərq xalqları ədəbiyyatlarında işlənməsi haqqında əsaslı tədqiqat aparmış görkəmli türk ədəbiyyatşünası A.S.Ləvənd “Leyli və Məcnun” dastanının “Yusif və Züleyxa”, “Xosrov və Şirin”, “Vamiq və Əzra”, “Cəmşid və Xurşid” və başqa qoşa qəhrəmanlı məhəbbət dastanlarından daha geniş yayılaraq daha çox məşhurlaşdığını bildirərək bunun səbəbini müəyyən dərəcə dastanın faciəli sonluğu ilə izah edir. Əlavə etmək istərdik ki, bu hekayədə özünü aydın göstərən məhəbbət azadlığı, şəxsiyyət toxunulmazlığı problemi mövzunun əbədiləşməsində mühüm əhəmiyyət daşımış, onu ölməz etmişdir. Təsadüfi deyildir ki, Məcnun, Leyli obrazları Şərq xalqları folkloru və klassik poeziyada azad məhəbbət carçıları kimi məşhurlaşmışlar.

Nizami insanı alçalmağa vadar edən hərisliyi, tamahkarlığı pisləyir, dünya nemətlərinə aludəçiliyin insanı azadlıq kimi əziz bir nemətdən məhrum etdiyini əsərindəki gündə bir çəngə ot ilə qidalanan qoca zahidin hekayəsində oxuculara çatdırır. Hekayədə deyilir ki, “Bir gün gəzməyə çıxmış adlı-sanlı bir hökmdar xarabalıqda yaşayan bir zahidə rast gəlir. Şah onu hüzuruna gətirdir. Zahiddən niyə xərabədə yaşadığını, burada nə yeyib-içdiyini xəbər alır. Zahid isə bir çəngə quru otu göstərərək yalnız bununla qidalandığını bildirir:




*Bu otun sirrini bilsən, ey insan,*
*Şahın xidmətindən azad olarsan.*

- cavabını eşidən şah atından yerə sıçrayıb zahidin ayaqlarına düşərək:

*Azadlıq əzizdir - dedi daima,*
*Budur sözlərində gizlənən məna.*

- deyir.

Hələ “Xəmsə”nin ilk poeması “Sirlər xəzinəsi”ndən başlayaraq Nizaminin epik yaradıcılığında əsas yer tutan insan və cəmiyyət münasibətləri cəmiyyətlə təbiət arasındakı harmoniya “Leyli və Məcnun”da öz əksini daha aydın və çoxcəhətli tapmışdır. Nizami qəhrəmanının təbiətin zinəti olan heyvanlarla ünsiyyətini inandırıcı bir tərzdə təsvir edərək vəhşilərin Məcnuna həmdəm olmasını əsərdə tərənnüm olunan məhəbbətin “ilahi-təsəvvüfi” mahiyyəti ilə deyil, real hadisələr fonunda həyati baxımdan izah edir.

*O, tordan, vəhşidən qorxmurdu bir dəm,*
*Vəhşilər olmuşdu Məcnuna həmdəm.*
*... Camaat qalmışdı bu işə heyran*
*Onun vəhşilərlə dost olmağından*
*Kimin ki, sevdası, eşqi solmazdı*
*Məcnunu görməmiş sakit olmazdı.*
*Hər gün bir diyardan gələn yolçular*
*Onun ətrafında tutardı qərar.*

Şair Məcnunu ziyarət edənlərin ona yemək gətirdiklərini, Məcnunun isə bu yeməklərdən ancaq bir tikə yeyib qalanlarını vəhşilərə payladığını bildirir. Bunun üçün də heyvanların onunla dostlaşdığını, onu ruzi verən bilib daima qoruduqlarını göstərir. Əsərdə “İt saxlayan padşahla bir gəncin haqqında” verilən hekayə bu baxımdan xüsusilə diqqətəlayiqdir. Hekayənin qısa məzmunu belədir: “Mərv ölkəsində yaşayan qəzəbli bir şah acığı tutduğu xidmətçilərini saxladığı quduz itlərin qabağına atmaqla cəzalandırarmış. Şaha xidmət edən bir gənc onun qəzəbindən qorxaraq saraya gələn gündən həmin itlərə yemək verərək onlarla dostlaşır. Nəhayət, onun ehtiyat etdiyi həmin hadisə baş verir. Gəncə qəzəbi tutan şah onun əl-qolunu bağlatdırıb dərhal itlərin qabağına atdırır. Gənci parçalamaq istəyən itlər onu tanıyıb quyruqlarını bulayaraq diz üstə yatırlar. Bir gündən sonra hirsi soyuyan şah peşman olur, xidmətçilərə gəncin aqibətinin necə olduğunu öyrənməyi tapşırır. Əhvalatdan xəbər tutan kimi gənci hüzuruna çağırıb necə sağ qala bildiyini soruşur. Gənc isə bu “möcüzə”nin sirrini açaraq itlərə yemək verməklə əvvəlcədən onlarla dostlaşdığını söyləyir:

*Etdiyim yaxşılıq getmədi hədər,*
*İtlər öz ağzını möhürlədilər.*
*Lakin xidmət etdim düz on il sənə,*
*Axırda bu cürə haqq verdin mənə.*
*... Dostluğu səndə yox, itdə gördüm mən,*
*İt bilən hörməti ayaqladın sən.*

Gəncin bu sözləri qəddar padşahı qəflət yuxusundan oyadır. O, “insaniyyətin” xoşbəxtlik olduğunu başa düşür, özünün köhnə adətlərindən - “itlik”dən, “itpərəstlik”dən əl çəkir. Nizami oxucuya üz tutaraq bu hekayədən ibrət almağı, səxavətli olmağı, təbiətə, canlılara qayğı göstərməyi tövsiyə edir:

*Bunu söyləməkdə bir məqsədim var;*
*Səxavət qələdir, o, can qoruyar.*
*Məcnuna bənzəsən insanlıqda sən,*
*Dünyada nə qüssə, nə dərd çəkərsən.*
*Xəlifə də yesə süfrəndə nemət,*
*Yeməyi səndənsə, qulundur əlbət.*

Vəfa, sədaqət mücəssəməsi olan Məcnunun təmiz mənəviyyatını onun məhəbbəti daha da saflaşdırmış, ülviləşdirmişdir. Məhəbbət onun təbiətindəki humanizm, insanpərvərlik xüsusiyyətlərini daha da gücləndirərək, mənəvi əzəmətini son həddə çatdırmışdır. Nizami bu əsərində saf təbiəti cəmiyyətin vaxtı keçmiş qayda-qanunlarına qarşı qoymuş, dilsiz-ağızsız vəhşi heyvanları köhnə adətlərə sözsüz itaət göstərən hissiz-duyğusuz insanlardan üstün tutmuşdur. Şair təbiətli Qeys onu çöldə vəhşi heyvanlarla ömür sürməkdən əl çəkib insanlar içərisində yaşamağa çağıranlara müraciətlə:

*Sən olduğun yerə çağırma məni,*
*Xoşdur bu seçdiyim sevda məskəni.*
*Burda nə düşmən var, nə də əğyar var,*
*Bizim işimizə qarışmaz onlar.*
*Əlindən tutanın olmasa bir az,*
*Ayağından tutub çəkən də olmaz.*

- deyir.

Nizaminin ədəbiyyatşünaslıqda haqlı olaraq psixoloji roman kimi qiymətləndirilən “Leyli və Məcnun”da qəhramanla onu əhatə edən mühit arasındakı anlaşılmazlıq özünün çoxcəhətliliyi ilə səciyyələnir. İnsan, onun cəmiyyətdə yeri, yeni nəslin öz sələfinə münasibəti, övlad məhəbbəti, valideyn qayğısı və başqa həyati-fəlsəfi problemlərə geniş yer ayıran şair qəhrəmanlarını dövrün duyan, düşünən ən zəkalı, həssas gəncləri kimi təqdim edir. Sonradan Məcnun adını almış Qeys özünün mənəvi zənginliyi ilə cəmiyyətin fövqünə yüksəlir. Humanist təbiəti, insan arzuları önünə keçilməz sədlər çəkən vaxtı ötmüş adətlərə qəti etirazı ilə müasirlərindən fərqlənir.

*Vaxtının ən böyük bir alimiydi,*
*Aləmi şərh edən loğman kimiydi.*
*Gizli mənalara o yol açardı,*
*Qəlbində göylərin min sirri vardı.*

Nizami müqəddəs bir məhəbbətlə sevən şair təbiətli, düşüncəli, dərrakəli aşiq olan Məcnunun valideyn sevgisini də uca tutan, zavallı ata-anasını daima ehtiramla xatırlayan bir övlad kimi təsvir edir. Əsərin dramatik səciyyəli yerlərindən biri də ata ilə oğulun görüşdükləri zaman insan ömrü, yaradılış, kainat, əxlaq, davranış qaydaları ilə bağlı fəlsəfi düşüncələrini izhar etdikləri məqamlardır.

Məcnun ata sözünə əməl edə bilmədiyi üçün valideyninə xoşbəxtlik gətirmədiyindən həmişə əzab çəkir. Atası ilə hər dəfə görüşdüyü zaman özünün üzrxahlığını bildirərək:

*Dedi ey nəfəsi ruhuma qüvvət,*
*Sənsən müşkülümü düzəldən əlbət.*
*Sözün, nəsihətin damağımdadır,*
*Bax qulluq halqan da qulağımdadır.*
*Gözəl nəsihətin qəlbə çıraqdır,*
*Kim boyun qaçırsa bəxtdən uzaqdır.*
*Mən qulaq asardım bu sözlərinə,*
*Neyləyim əlimdən gəlməyir yenə.*

- deyir.

Məcnun ən çətin anlarında belə ata-anasını unutmur, anasını həsrətlə xatırlayır, yanına gələnlərə anasını görmək arzusunu bildirir:

*Necədir qanadı qırılmış o quş?*
*O damı ayrılıq dustağı olmuş?*
*Yanında qaradır üzüm əzəldən,*
*Qara bir quluyam öz anamın mən.*

Anası ilə görüşərkən:

*Başımın tacıdır ayağın sənin,*
*İncimi bəsləmiş sənin sədəfin.*
*Sənin toxumunun məğziyəm ana,*
*Ayaq torpağın da cənnətdir mana...*

Məcnunun bu sözləri bizə “Kitabi-Dədə Qorqud” dastanlarında gənc nəslin öz sələflərinə olan məhəbbətlərini, xüsusilə “Ana haqqı Tanrı haqqıdır” - kəlamını xatırladır. Qadınlığa böyük hörmət bəsləyən, onu cəmiyyətin tamhüquqlu üzvü kimi görməyi arzulayan böyük şair Leyli obrazını məhəbbətlə qələmə almış, onun faciəsini ürək ağrısı, dərin təəssüf hissilə təsvir etmişdir. Bununla belə, dahi sənətkar zahiri və mənəvi gözəlliyi ilə hamını heyran edən qadın qəhrəmanını həm də yaxşı yoldaş, mehriban rəfiqə, mühitə, mövcud qayda-qanunlara açıq gözlə baxan, etirazını gizlətməyən, əli heç bir yana çatmasa da, özünü-müdafiə etməyi bacaran həssas qadın kimi oxucularına sevdirir. O, lazım gələrsə, dövrün qanun çərçivələrini aşaraq sevgilisi ilə görüşməyə cəhd edir, ona məktublar çatdırır, hətta ərini belə sillə ilə vurub həddini tanıdan (əlbəttə, öz hüququnu qorumaq baxımından) qadın kimi qarşımızda ucalır.

Nizami “Leyli və Məcnun”da insan qəlbinin incə duyğularını, insanın təbii arzu və meyillərini, həsrət və arzularını həssaslıqla ifadə etmiş, gözəlliyə pərəstiş, mənəvi ucalıq, sevgiyə inam, şəxsiyyət toxunulmazlığı, məhəbbət aləmində bərabərlik və başqa bu kimi məsələlərlə yanaşı, təmiz ad, ləkəsiz mənəviyyat, soy-kökə, nəcib adət-ənənələrə hörmət və s. həyati problemləri də əhatə etmişdir. Nizami poemalarında özünü çox qabarıq göstərən lirik vüsət “Leyli və Məcnun” poemasında da oxucunun diqqətini cəlb edir. Əsərdə lirik səciyyəli bölmələrə, gözəl təbiət mənzərələri, qəhrəmanların gözəlliyinin, onların həyəcan, sevinc anlarının təsvirində, “Məcnunun qəzəl oxuması”, “Leylinin Allaha yalvarması” əsər qəhrəmanlarının səba yelinə, gecəyə, Aya, ulduzlara xitabı, ceyran, maral, qarğa ilə söhbətinə şikayətlərinə həsr olunmuş bölmələr əsərin lirik ruhunu gücləndirir. Şair poemada özünün ricətləri, müəllif haşiyələri, bədii xitabları ilə də əsərin lirik əhval-ruhiyyəsini artırır.

Böyük şair ölməz ideallarını yüksək sənət dililə təqdim etmiş, bədii sözün ecazlarından görünməmiş bir sənətkarlıqla faydalanmış, humanist görüşlərini xalq ədəbiyyatından aldığı ibrətamiz süjetlərlə təsdiqə çalışaraq əfsanə, el rəvayətlərindən faydalanmış, xalq hikmətinə, xalq zəkasına, xalq məsəlləri, mənalı atalar sözlərinə tez-tez müraciət etmiş, özü də atalar sözləri dəyərində mənalı beytlər yaratmışdır.

Nizami əsərlərində rəngarəng poetik vasitələrlə canlanan təbiət təsvirləri əvvəl də qeyd etdiyimiz kimi, məzmunun ayrılmaz hissəsinə çevrilərək baş verən hadisələrlə də gözəl uyuşur, qəhrəmanların əhval-ruhiyyəsini tamamlayır. Əsərdə təbiətlə onun ayrılmaz parçası olan insan arasında çoxcəhətli uyğunluğun maraqlı nümunələri ilə qarşılaşırıq. “Xəmsə”nin digər poemalarında olduğu kimi, “Leyli və Məcnun” əsərinin bədii ruhunda təbiət gözəlliklərinin şairanə tərənnümü ilə təhkiyə arasında məna və poetik baxımdan bağlılıq diqqətə çatır. Ustad sənətkar qəhrəmanların qayğısız gənclik günlərini, sevgililərin görüş anlarını, təbiətin oyandığı və füsunkar mənzərələri ilə insana sevinc gətirən bahar və yay günlərində baş verdiyini təsvir edir. Sevgililər görüşdüyü zaman təbiət də səfalı, göy üzü aydın, ayın, günəşin işığı daha parlaq görünür. Məsələn; Məcnunun Leylinin tamaşasına getməsi fəslinin başlanğıcında oxuyuruq:

*Tezdən duran Xosrov (yəni Günəş-N.A.) səhər vaxtında,*
*Sevinclə əyləşdi şahlıq taxtında.*
*Günəş ki, eşqlə öpdü gündüzü,*
*O eşqə baş əydi bütün yer üzü.*

*Göyləri nur verən bir işıqlı gün,*
*Novruz bayramından xoş idi o gün.*
*Arzu kəmərini bağlamışdı baxt,*
*Qüssə dağılmışdı dünyadan o vaxt.*

Qəhrəmanların ölümü əsərdə təbiətin cansıxıcı bir görkəm aldığı, güllər, çiçəklər solduğu, ağaclar yaşıllığını itirdiyi, əvvəlki təravətdən əsər-əlamət qalmadığı bir zamana təsadüf edir. Bu fəsil aşağıdakı misralarla başlayır:

*Qaydadır yarpaqlar tökülən zaman,*
*Qanlı sular axar o yarpaqlardan.*
*Hər bir budağın ki içində qan var,*
*Axır deşiklərdən süzüb damcılar.*
*Suyun şüşəsi də soyuyub donar,*
*Bağların üzünə sarılıq qonar.*

* * *

Nizami yaradıcılığı Yaxın Şərqdə miniatür sənətinin inkişafına qüvvətli təsir göstərmiş, şairin əsərlərinin əlyazmaları əsrlər boyu (əvvəldə də qeyd olunduğu kimi) Şərqin ən istedadlı xəttatları tərəfindən üzü köçürülərək yayılmışdır. Nizami poemalarına məşhur miniatürçü rəssamlar illüstrasiyalar çəkmiş, ustad müzəhhiblər (qızıl suyu ilə ornament çəkən sənətkarlar) şairin əlyazmalarını təzhib edərək bəzəmişlər. “Yaxın Şərqdə hind, Herat, Təbriz rəssamlıq məktəbinin nümayəndələri Behzad, Ağamirək, Sultan Əli Təbrizi və başqa görkəmli Şərq rəssamları Nizami süjetləri əsasında çəkdikləri əsərlərilə şöhrətlənmişlər” (H.Araslı, Azərbaycan ədəbiyyatı: tarixi və problemləri, 1998, s.241). Orta əsr rəssamlıq sənətinə yeni istiqamət verən Nizami mövzuları, bu sahədə real həyati təsvirin geniş yer almasında böyük əhəmiyyət daşımışdır. Bu da maraqlıdır ki, Nizami öz əsərlərində sənətə və sənətkara həmişə böyük məhəbbətlə yanaşmış, mahir sənətkar obrazları yaradaraq əsərlərində təsvir etdiyi maraqlı hadisələrdə istedadlı fırça ustalarının (Şapur, Mani, Çin, Rum rəssamları) əhəmiyyətli rolundan dərin rəğbət hissilə bəhs etmişdir.

Klassik Şərq poeziyasına yaxından tanış olan Fəxrəddin Əli Vəli oğlu Nizami əsərlərini diqqətlə nəzərdən keçirmiş, “Leyli və Məcnun” poemasının fikri və poetik məziyyətlərini dərindən duyaraq, seçdiyi süjetləri ustalıqla canlandırmağa çalışmışdır. Təcrübəli rəssam əsər qəhrəmanlarını da poemanın məzmununa uyğun Nizaminin saf məhəbbət, uca mənəviyyat, təbiətə və onun bəzəyi olan canlılara sevgi, qayğı, ata-anaya ehtiram, övlada məhəbbət, dostluq, sədaqət və fədakarlıqla bağlı yüksək bəşəri ideallarını bacardıqca əhatə etməyə cəhd göstərmişdir. Rəssamın çəkdiyi rəsmlərin əksəriyyəti poemanın lirik ruhunu, obrazların zahiri gözəllikləri ilə yanaşı, daxili aləmini də əks etdirərək əhvalatların baş verdiyi zaman, məkan, mühit haqqında da müəyyən təsəvvür yaratmaqla bütövlükdə əsərin bədii məqsədinin aydın anlaşılmasına xidmət edir.

AMEA-nın prezidenti akad. Akif Əlizadənin təşəbbüsü və maddi-mənəvi dəstəyi ilə ərsəyə gələn bu seriyanın üçüncü cildi nizamişünaslığa edilən dəyərli hədiyyə olmaqla yanaşı, həm də Nizami irsinin öz aktuallığını itirməyib, geniş oxucu kütləsinin daima diqqət mərkəzində olduğunu, nəsillərin mənəvi- estetik tərbiyəsindəki əvəzsiz əhəmiyyətini bu gün də qoruyub saxladığını göstərir.

Söz yox ki, Şərq rəssamlıq sənətinin incəliklərini dərindən mənimsəmiş, rəssamımız sələflərinin özünəqədərki zəngin ənənələrini “Xəmsə”nin qalan cildlərinin nəşrlərində də uğurla davam etdirəcək və özünün yeni sənət tapıntıları ilə dahi Azərbaycan şairinin yaradıcılığının tədqiqi və təbliği sahəsində görülən işlərin daha geniş, daha qlobal xarakter almasında əhəmiyyətli mövqe tutacaq.

**Nüşabə ARASLI,**
**filologiya elmləri doktoru,**
**professor.**

# Göyçə onun beşiyi, ana laylası, ucalığıdı



**O, 1944-cü ilin bir yaz günündə yaşına əl yetməyən, qədimdən-qədim, ulu Göyçə mahalında - Basarkeçərin Nərimanlı kəndində dünyaya göz açıb. Dədə Ələsgər, Aşıq Alı kimi ustadlar diyarı, söz ocağında böyüyüb boya-başa yetən Qədir Aslan uşaqlıqdan sinəsinə müdrik kəlamlar yığıb, ayağına "dəmir çarıq geyib", SÖZün sehrli, ilğımlı, enişli-yoxuşlu yollarına çıxıb.**

**İlk təhsilini doğma kəndində alan Qədir müəllim orta məktəbi bitirdikdən sonra arzularının dalınca Bakıya üz tutur. Universitetin jurnalistika fakültəsinə daxil olur. Və beləcə, gəncliyinin ən böyük arzularından biri çin olur. Bir zamanlar həsrətlə boylandığı ali məktəbin astanasına kövrək-kövrək, həm də qətiyyətlə qədəm basır. Ömrünün bəxtəvər, coşduqca coşan, bitməz-tükənməz enerji ilə dolu tələbəlik illəri başlayır. Sevib-seçdiyi peşəyə qovuşmaq arzusu ilə inadlı axtarışlara baş vurur.**

Çox sonralar əmin olur ki, universitet illərində aldığı qiymətlər insanı saf-çürük edib keşməkeşlərdən çıxaran, mübarizə dolu həyat yolunda aldığı qiymətlərin ən dadlısı, ən əlasıdır. Nəhayət, şirin bir nağıla bənzəyən tələbəlik illərinin - zirvədən zirvəyə çatmaq üçün qürurlu və uğurlu bir yolun sonu, xoş soraqlarla dolu sabahın başlanğıcı gəlir. Bir zaman onu isti ana qucağı kimi hərarətli qoynuna alan doğma ali məktəb xoş mujdəli gələcəyə pərvazlandırır.

Əmək fəaliyyətinə rayon komsomol komitəsində təşkilat şöbəsinin müdiri kimi başlayan Qədir müəllim sonralar 20 il fasiləsiz olaraq "Vardenis" rayon qəzetində ədəbi işçi, kənd təsərrüfatı şöbəsinin müdiri və məsul katib vəzifələrində çalışır. Qısa müddətdə imzasını oxuculara tanıtdıra bilir. Həmin dönəmdə "Sovet Ermənistanı" qəzetində də oçerk, reportaj, felyeton, hekayə və başqa janrlarda yazılarla çıxış edir. SSRİ Jurnalistlər İttifaqının üzvlüyünə qəbul edilir. Uşaqlıqdan SÖZə könül verən, onu ucuz tutmayan, həmişə "pisi pis, əyrini əyri, düzü həmvar yazan" Qədir müəllim mətbuatdakı səmərəli fəaliyyətinə görə dəfələrlə müxtəlif diplomlara layiq görülür.

Bütün bunlar 1988-ci ilin payızına qədər davam edir. 1988-ci il isə tufanla, qasırğayla, fəlakətlə döyür qapıları. XX əsrdə ən faciəli tarixini yaşayan göyçəlilər də məkrli erməni siyasətinin qurbanı olur, deportasiyaya məruz qalırlar. Bu dəfə dərd batmanla gəlir. Göyçədə bir nəfər də azərbaycanlı qalmır. Əsrlər boyu xalqımızın başına gələn dərdlər, faciələr, bəlalar Qədir Aslanın da taleyindən yan keçmir. O da illərlə qurub-yaratdıqlarını bircə gündə itirir. Övladları, doğmaları, qoynundan didərgin düşən doğma el-obası yağılara yaylaq olur. O illərdə Qədir Aslan Göyçənin - doğma el-obasının qələmlə döyüşən sərkərdəsi idi. Cismi doğma yurddan ayrılsa da, ruhu, fikri, xəyalı daim o yerlərdə dolaşır. Qəlbində od qalayır, için-için alovlanır, yanır. Göyçə dərdi ilə baş-başa, həsrətin ağır yükü çiyinlərində yol gedir.

Qədir müəllim Göyçədən ayrılandan sonra bir müddət Göygöl rayonunda yaşayır. Sonra tale onu yenə Bakıya -tələbəlik illərinin bu böyük şəhərinə gətirir. "İşıq" nəşriyyatında redaktor kimi fəaliyyətə başlayır. Bu həmin dönəm idi ki, Azərbaycan mətbuatında Qarabağın gerçək tarixi və ümumiyyətlə, xalqımızın milli maraqlarına xidmət edən materiallar daha sıx işıq üzü görməyə başlamışdı. Elm xadimləri ilə yanaşı, jurnalistlər də öz qələmləri ilə ermənilərin iddialarına qarşı mübarizədə əsas ağırlığı öz üzərlərinə götürməyə çalışırdılar. O dövr Azərbaycanda nəşr olunan respublika əhəmiyyətli azsaylı qəzetlər öz əməkdaşlarını Dağlıq Qarabağa, muxtar vilayətin azərbaycanlılar yaşayan ucqar kəndlərinə ezamiyyətə göndərir, onların hazırladıqları ətraflı materallar vasitəsilə insanları unudulmuş yaşayış məntəqələrindəki vəziyyətlə tanış etməyə çalışırdı. Həmin dönəmdə respublikanın kommunist rəhbərliyi jurnalistlərin bu istiqamətdə göstərdikləri gerçək fədakarlığı əngəlləməyə çalışsa da, qələm sahibləri təhlükəli hesab olunan Dağlıq Qarabağa ezamiyyətlərinə ara vermirdilər. Çox təhlükəli olan bu ezamiyyətlər bəzən qələm sahiblərinin həyatı bahasına başa gəlirdi. Belə bir ağır dönəmdə Goranboyda, keçmiş Şaumyankənd uğrunda gedən döyüşlər zamanı Qədir Aslan həmin bölgəyə ezam olunur, atəş altında olan yerlərdə hərbçilərlə görüşür, müsahibələr alır. Çox keçmir ki, onun Azərbaycanın ilk Milli Qəhrəmanı fəxri adına layiq görülmüş Vətənin cəsur, şahin oğulları barədə oçerklər kitabı işıq üzü görür.

2001-ci ilin noyabrından "Respublika" qəzetində çalışan Qədir Aslan ilk gündən işgüzarlığı ilə fərqlənir. Cəmiyyəti narahat edən, ictimaiyyəti düşündürən müxtəlif mövzulara müraciət edən Qədir müəllim tezliklə qəzetin əsas imzalarından biri olur.

Bu gün dünyanın dörd bir tərəfində yaşayan, fəaliyyət göstərən yurddaşlarımızın müstəqil Azərbaycan kimi vahid vətəni və yeganə dayağı var. Hazırda dünyanın bütün qitələrində yaşayan azərbaycanlılar milli mənlik şüuru əsasında sıx birləşməyin zəruriliyini daha aydın dərk edirlər. Hansı ölkədə yaşamasından asılı olmayaraq, damarlarında azərbaycanlı qanı axan hər bir kəsin ürəyi Vətənlə bir döyünür. Dövlətimizin beynəlxalq nüfuzunun yüksəlməsi, bayrağımızın daha yüksəklərdə dalğalanması, millətimizin imzasının imzalar içində olması üçün hər bir azərbaycanlı bütün varlığı ilə mübariz olmalıdır. Dünya Azərbaycanlılarının Bakıda keçirilən I Qurultayında səslənən bu çağırış xaricdə yaşayan soydaşlarımızı vahid bir ideya - azərbaycançılıq məfkurəsi ətrafında daha sıx birləşdirməkdədir. Həmin qurultayda iştirak edən Qədir müəllim də yaradıcılıq fəaliyyətini bu istiqamətə yönəldir. "Respublika" qəzetində yaradılan diaspor şöbəsi ona həvalə olunur. Qurultayda ulu öndər Heydər Əliyevin milli diasporumuzla bağlı tövsiyələrini bir jurnalist olaraq ləyaqətlə yerinə yetirir, soydaşlarımızı vahid ideya ətrafında birləşməyə səsləyən yazılar hazırlayır. Bu xidmətlərinə görə Qədir Aslan ayrı-ayrı illərdə, Ukrayna, Belarus, Moldova, Özbəkistan, Rusiya Federasiyası Azərbaycanlıları Konqresinin diplomlarına layiq görülür.

O, bu böyük şəhərə saz-söz mühitindən - Göyçədən gəlib. Göyçə onun beşiyi, ana laylası, ucalığıdı. Mübaliğəsiz demək olar ki, təmiz qəlbli, saf diləkli bu insanın ruhunun mayası da saz havası, aşıq musiqisi ilə yoğrulub. Qədir müəllimin yazılarında da o saz səsi, o səsin həzinliyi, duruluğu hiss olunur. Bəli, beləcə, Qədir Aslan qarşısına çıxan bütün nahamarlıqları aşaraq böyük SÖZə gəldi. Gəldi və qısa zaman kəsiyində sevilib seçildi, özünü təsdiqləyə bildi. Əməkdar jurnalist, "Qızıl Qələm" mükafatı laureatı Qədir Aslan "Göyçə şəhidləri", "Goranboy qartalları", "Borçalının Qəhrəman oğlu", "XX əsrin Koroğlusu", "Səbailin şahin oğulları", "Oğuz yurdunun Milli Qəhrəmanları" kitablarının müəllifidir.

Qədir Aslan gözəl ailə başçısı - ata, qayğıkeş babadır. ALLAH ona 4 övlad, 10 nəvə qismət edib. Övladlarını, nəvələrini çox sevir. Davranışı ilə onlara nümunə olan Qədir müəllim yeri gələndə, məsləhətlərini də əsirgəmir. Mərhum ömür-gün yoldaşı Ofelya xanımla olan münasibətlərinə gəlincə isə, onlar sanki bir-biri üçün yaradılmışdılar. Qədir müəllim kimi Ofelya xanım da mülayim xarakterli, şirindilli insan idi. "Qurban olum", "başına dönüm" kəlmələri dilindən düşməzdi. Hərdən aralarında xırda-para inciklik, umu-küsü olsa da, bunu övladlarına hiss etdirməzdilər.

Qədir müəlimi yaxından tanıyanlar onun möhkəm və iradəli insan olduğunu bilirlər. Övladlarına da həmişə dözümlü, təmkinli olmağı tövsiyə edib. Amma həyat yoldaşı Ofelya xanım dünyasını dəyişəndən sonra heç kəs onun üçün uzun illər bir yerdə yaşadığı vəfalı ömür-gün yoldaşını əvəz edə bilmir.




"Ot kökü üstə bitər", - deyib atalarımız. Qədir müəllimin 3 oğlu və 1 qızı bu ocağa layiqli övlad kimi atalarının ziyalılıq şərəfini daim uca tutur, bu vətənpərvər, dəyərli insanın adına layiq olmağa çalışırlar. Övladlarından Möhsün atasının yolunu davam etdirir. Gözəl qələmi olan jurnalistdir. Ailənin digər oğlu Namiq nəqliyyat sektorunda çalışır. Oğlu Bakir polis işçisidir. Qədir müəllimin yeganə qızı, evin sonbeşiyi olan Esmira bir neçə il "Lider" televiziyasının əməkdaşı olub, hazırda isə İstanbul şəhərində yaşayır, diaspor fəallarından biridir.

Adı jurnalistikamızın tarixində unudulmaz bir dəyər kimi yer alan Qədir Aslan indi ömrünün müdriklik çağını yaşayır. Yaxşı ki, onun mövzuları da, yaradıcılıq əzmi də bitib-tükənmir. O, mətbu sözün işığına tapınaraq, taleyinə yazılan qəzetçilik missiyasını həvəslə, böyük enerji ilə yerinə yetirir.

1974-cü ildən SSRİ Jurnalistlər İttifaqının, İstanbul Azərbaycanlıları Cəmiyyəti İdarə Heyətinin, Ukrayna Azərbaycanlıları Konqresinin üzvü, Ukrayna Azərbaycanlılar Konqresinin orqanı olan "Azərbaycanın səsi" qəzetinin Azərbaycan üzrə müxbiri Qədir Aslanın 75 yaşı tamam olur. Hər kəs bu dünyada bir ömür payı yaşayır. Və təbii ki, qismətinə yazılanı. Kimi az, kimi çox. Amma əsas ömrün azlığı-çoxluğu deyil, onu necə yaşamaq, bu zaman kəsiyinə nələri sığışdırmaqdır. Çünki insan ömrünün uzunluğu yaşanmış illərin sayı ilə deyil, onun mənası, əməlləri ilə ölçülür...

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# UĞURLU VƏ ÇOXŞAXƏLİ YARADICILIQ YOLU

**Elmin fərqli sahələrində uğurla fəaliyyət göstərən yaradıcı şəxslərin işi həmişə maraq doğurur və rəğbətlə qaşılanır. Kimyaçı alim Rəsul Rəxşanlı da belələrindən biridir. O, 1949-cu ilin aprelində Ağsu rayonunda anadan olmuşdur. Bakıdakı 172 saylı orta məktəbdə, sonra Neft və Kimya İnstitutunda oxumuşdur. Kimyaçı-texnoloq ixtisası üzrə ali təhsil almış Rəsul müəllim elmi fəaliyyətə böyük həvəs göstərmiş və bu sahədə çalışmışdır.**



Gənc yaşlarında az tədqiq olunmuş və zəhərli maddələr olan nitrilli birləşmələr istiqamətində fəaliyyətə başlamışdır. Son dərəcə az öyrənilmiş doymamış alifatik nitrillərdən olan krotononitrilin yeni alınma üsulunu ixtira etmiş və bu yeniliyə müəlliflik şəhadətnaməsi almışdır. Rəsul müəllim molekulunda ikiqat rabitə olan tsiklik nitrillərin yeni üsulla alınmasını araşdırmışdır. İkiqat rabitəli nitrillərə maraq təbiidir, çünki bu birləşmələr də, onların alınma reaksiyaları da az tədqiq olunmuşdur. Onların əsasında çoxlu sayda fərqli tərkibli və müxtəlif sahələrdə praktiki əhəmiyyətli preparatlar hazırlamaq mümkündür. Belə birləşmələrə aid olan amin turşuların yeni üsulla alınmasının işləyib hazırlanmasında iştirak etmişdir. Krotononitrilin və həmin homoloji sıradan olan digər maddənin - metakrilonitrilin iştirakı ilə aparılan sianalkilləşmə reaksiyalarını tədqiq etmişdir. Artıq bu istiqamətdə amerikalı və Qərbi avropalı tanınmış alimlərin belə reaksiyaları aparmağa müvəffəq olmadıqları haqqında açıq və səmimi etiraflar həmin ölkələrin kimya profilli elmi jurnallarında yer almışdı. Belə reaksiyaları aparmağa cəhd etmək mütəxəssisdən, xüsusən də gənc mütəxəssisdən sadəcə cəsarət deyil, həm də dərin nəzəri bilik və praktiki iş bacarığı tələb edir. Həmin alimlərin əsərləri ilə bilavasitə tanışlıq onların qarşıya qoyduqları məsələlərə yanaşmalarda nəzəri cəhətcə səhvə yol verdikləri aydınlaşdı. Təbii ki, nəzəri cəhətcə səhv yanaşma praktiki işlərdə müsbət nəticələrə aparıb çıxara bilməzdi. Bu kimyəvi reaksiyaların aparılması üçün yeni yanaşma vacib idi. Gənc tədqiqatçı tələb olunan yanaşmanı düzgün seçərək yeni reaksiyaları uğurla apara bildi.

İxtira səviyyəsində olan bu yeniliyə görə də gənc tədqiqatçıya müəlliflik şəfadətnaməsi verildi. Krotononitril və metakrilonitril əsasında yeni maddələrin - müxtəlif quruluşlu aminonitrillərin sintezi istiqamətində tətqiqatları davam etdirdi. Doymuş və doymamış, alifatik və aromatik, xətti və şaxələnnmiş quruluşlu yeni bifunksional birləşmələrin sintezi praktiki cəhətdən maraq kəsb edirdi. Lakin burada da nəzəri cəhətdən düzgün yanaşma öndə duran məqam olmalı idi. Molekullarında amin və nitril funksional qruplarına malik olan birləşmələr ilk növbədə bioloji fəallığa malik olmalıdır, nəzəriyyə bunu deyir. Belə də oldu. Sintez edilmiş maddələrin bir neçə nümayəndəsinin tədqiqi göstərdi ki, onlar canlıları radiasiyadan qorumaq, bitkilərin məhsuldarlığını artırmaq kimi dəyərli keyfiyyətlərə malikdir. Moskva vilayətində fəaliyyət göstərən və SSRİ məkanında yeganə olmuş Kimyəvi birləşmələrin bioloji sınağı üzrə elmi-tədqiqat institutunda da aminonitrillər yoxlanıldı. Bioloji fəallıq xassəsinə malik olan birləşmələr kimi qeydə alındı və müəllifə dövlət qeydiyyat nömrələri verildi. Məhz hansı bioloji fəallığa malik olmalarının isə sirr olaraq sənəddə göstərilməməsi üstün tutulmuşdu. Lakin ölkəmiz neft, qaz ölkəsidir. Bu istiqamətdə də yeni maddələrin faydalı ola biləcəklərini araşdırmaq yaxşı olardı. Belə maddələr həm də metalları korroziyadan qorumalıdır. Neftqazçıxarma sənayesində geniş miqyasda işlənən polad avadanlıqların, dayaqların, özüllərin, qurğuların, estakadaların və b. korroziyadan mühafizəsi daim diqqətdə saxlanılan böyük problemlərdəndir. Təcrübələr göstərdi ki, bu sahədə də nəticələr yüksəkdir. Adıçəkilən aqressiv mühitdə poladın korroziyadan mühafizəsi 99 faizdən yüksəkdir. Digər maraqlı məqam da var. Bəzi kimyəvi elementlərin təyini heç də asanlıqla baş tutmayır. Bu iş üçün daim yeni üzvi analitik reagentlərin axtarışı davam etdirilir. Yeni maddələr bu istiqamətdə də müsbət cəhətdən fərqləndi. Əldə edilmiş elmi nəticələr yüksək olduğundan müəlliflik şəhadətnaməsi də alındı, məqalə də dərc edildi, konfransda məruzə də edildi.

Kimyaçı alim Rəsul Rəxşanlı tədqiqat apardığı işlərin bir hissəsi əsasında 1981-ci ildə "Ammonyakın, aminlərin metakril və kroton turşularının nitrilləri ilə sianalkilləşmə reaksiyalarının tədqiqi" adlı namizədlik dissertasiyası yazdı. Opponent, nitrillər sahəsində məşhur sovet alimi, professor E.N.Zilberman dissertasiyaya yazdığı rəydə tədqiqatçının işləyib hazırladığı aminlərin krotononitril və metakrilonitril ilə sianalkilləşməsi reaksiyaları üçün işləyib hazırladığı üsulu, yeni bifunksional birləşmələrin sintezini və onların tətbiq sahələrinin müəyyənləşdirilməsini yüksək elmi nəticə kimi qiymətləndirdi.

Tədqiqatçı alim həmin istiqamətdə axtarışlarını davam etdirməklə yanaşı, artıq sintez etdiyi aminonitrillərin iştirakı ilə də yeni reaksiyalar aparmağa, yeni birləşmələr almağa başlamaqla kimyəvi tədqiqatlarının istiqamətlərini daha da genişləndirdi. Belə ki, aminonitrillər əsasında oliqomerlər, polimerlər alındı. Aminonitrillərin iştirakı ilə yeni tip reaksiyalar - sianaminometilləşmə reaksiyaları aparılmasının başlanğıcını qoymuş oldu. Onun məşğul olmaq istədiyi və böyük perspektivli heterotsiklləşmə reaksiyalarını şəhərimizdə aparmağa texniki imkan olmadığından SSRİ Elmər Akademiyasının Üzvi-Kimya İnstitutunda (Moskva) bir neçə il tədqiqat apardı. Dərmanların, tibb preparatlarının, heyvandarlıqda və bitkiçilikdə işlənən fizioloji və bioloji fəal birləşmələrin alınmasında yarımməhsul kimi işlənən maddələrin yeni üsul ilə alınması istiqamətində çox faydalı təcrübələr apardı. Rəsul müəllim aminonitrillərin asetilenlə heterotsikləşdirilməsi reaksiyası ilə bir mərhələdə məqsədli aminopiridinləri yüksək çıxım faizi ilə ala bildi. Bu üsulu və sintez etdiyi birləşmələri ayrı-ayrılıqda və bunların da daxil olduğu doktorluq dissertasiyası işini bütövlükdə həmin laboratoriyanın müdiri, professor Y.S.Mortikov yüksək qiymətləndirdi.

Aldığı maddələrin və birləşmələrin hansı sahələrdə faydalı ola biləcəklərini aydınlaşdırmağa dəyər verən tədqiqatçı bu istiqamətlərdəki axtarışlarını AMEA institutlarının alimləri ilə birgə aparmağa üstünlük verirdi. Birgə tədqiqatlar yeni maddələrin nə dərəcədə qiymətli olduqlarını aşkarlamağa yardımçı oldu. Onlardan bəziləri haqqında.

Helmint qurdları heyvanların daxili orqanlarında yığılanda canlılar arıqlayır, süd-verməsi azalır, balaverməsi zəifləyir və ya kəsilir. Kənd təsərrüfatı heyvanlarının helmintlərdən müalicəsi və profilaktikası mühüm əhəmiyyət kəsb edir. Aminonitrillərin ovolyarovosid kimi laboratoriya şəraitində tədqiqi və heyvandarlıq fermasında sınaqdan keçirilməsi həmin qurdların öldürülməsində yüksək nəticə verdi. Helmintlərlə elmi işlər aparılmasında da bu maddələr faydalıdır. Onların yetkin və sürfə formalarında konservant və işıqlandırıcı kimi özlərini çox gözəl göstərmişlər. Nematodda sürfələrin inkişafına güclü stimullaşdırıcı kimi təsir edir. Yeri gəlmişkən qeyd edək ki, həmin elmi nəticələr 1990-cı ildə Respublika Dövlət mükafatına layiq görülmüş "Azərbaycanda heyvanların, quşların və balıqların başlıca parazitar xəstəlikləri və onların profilaktikasının elmi əsaslarının işlənib hazırlanması və tətbiqi" işinin tərkib hissəsi olmuşdur.

Pambıq sovkasının məhsuldarlığa vurduğu böyük ziyan məlum olsa da, bu ziyanvericilə mübarizədə uzun onilliklər ərzində tətbiq edilən preparatlara qarşı onların dözümlülüyü yüksəlir. Mövcud preparatların məhvedici təsiri illər ötdükcə azalır. Yeni təsirli preparata ehtiyac vardır. Aminonitrilin sahələrdə sınaqdan çıxarılması onun orijinal təsirini və yüksək öldürücü faizini üzə çıxardı. Belə ki, maddə sovka tırtıllarını yumurtadan çıxdıqları ilk 20 gün ərzində 80 faizədək məhv edir. Sahələrdə aparılmış alma güvəsinə qarşı mübarizə də effektli olmuşdur. Baramaçılıqda tətbiqi defektli ipəyin yaranmasını xeyli dərəcədə azaldır. Buğdanın, şəfaverici həna bitkisinin və qiymətli yem olan yoncanın məhsuldarlığını əhəmiyyətli dərəcədə artırır. Kənd təsərrüfatının respublikamızda inkişafına böyük diqqət və qayğı göstərildiyi indiki dövrdə adları çəkilən nəticələrdən faydalanmaq yerinə düşərdi.

Bu axtarışların nəticələrinə görə müəlliflik şəhadətnamələri alındı, nüfuzlu elmi məcmuələrdə əsərlər dərc edildi, müxtəlif miqyaslı elmi toplantılarda çıxışlar oldu. 1989-cu ildə "Beta-amino(izo) butironitrillər: sintezi, çevrilmələri və funksional xassələri" adlı doktorluq dissertasiyası yazıldı. Rəsul müəllim hazırda yüzdən artıq ixtiranın, ölkədə və xaricdə dərc edilmiş elmi əsərin müəllifi və ya həmmüəllifidir. Bir sıra ümumittifaq və beynəlxalq konfranslarda dəyərli çıxışları ilə respublikamızı layiqincə təmsil etmişdir.

R.Rəxşanlının maraq dairəsinin digər obyekti son dərəcə az öyrənilmiş elm tariximizin tədqiqidir. O, ilk kimyaçı alimimiz Möhsün bəy Xanlarovun həyat və yaradıcılığı istiqamətində onilliklər ərzində ölkədə və xaricdə axtarışlar aparmaqla müxtəlif sənədlər əldə edə bilmişdir. Strasburq Universitetində XIX əsrdə işləyib müdafiə etdiyi dissertasiyasını, dövrünün ən nüfuzlu jurnallarında dərc etdirdiyi elmi əsərlərini taparaq surətini Vətənə gətirmiş və tədqiq etmişdir. Haqqında kitablar, məqalələr yazmışdır. AMEA-nın sabiq prezidenti akademik M.K.Kərimov tədqiqatçının bu çalışmalarını "elm tarixi elmimizin dəyərli uğuru" adlandırmışdı. Dünya miqyasında tanınmış alimlərimizdən M.F.Nağıyev, S.C.Mehdiyev, Ə.M.Quliyev və başqaları haqqında 12 kitab qələmə almışdır. Digər alimlərin yaradıcılıqlarına aid məqalələr çap etmişdir. Onun kitabları təkcə yerli deyil, həm də xarici ölkə kitabxanalarında, şəxsi kitabxanalarda, muzeylərdə saxlanılır. Uzun onilliklər ərzində elm tarixi ilə yaxından maraqlanan Rəsul müəllim müşahidə və düşüncələrinin nəticəsi olaraq belə qənaətə gəlmişdir: - "Özümüz elm tariximizi tədqiq etməsək, özgə tədqiqatçıların nəticələrinin heç də hamısı ilə razılaşmadığımızı sübut etməli olacağıq". Elm tarixi elminin bizdə də prioritetliyi, Elmlər Akademiyamızda Elm Tarixi İnstitutu yaradılması üçün onilliklər ərzində təbliğat aparır və təklif edirdi. Bu məsələnin müsbət həlli həmin illərdə mümkün olmasa da, onun məhsuldar, çoxşaxəli fəaliyyəti nəzərə alınaraq "Tarixi-kimyəvi tədqiqatlar laboratoriyası" açıldı. Elm tarixinə maraq insanlar arasında digər ölkələrdə olduğu kimi bizdə də zəifdir. Müəllif isə geniş oxucu kütləsini elm tariximizlə tanış etmək istəyirdi. Odur ki, oxucuların tanınmış şəxslərin həyatına böyük maraq göstərdiyini nəzərə alaraq alimlərimizin həyat və yaradıcılığından bəhs edən kitablar qələmə almağa üstünlük vermiş və bu yolla elm tariximizin təbliğinə nail olmuşdur.

Rəsul müəllim kimya və onunla qovuşuq sahələrin, kimya tarixinin populyarlaşması ilə də məşğul olur. Kitab və məqalələr yazmaqla yanaşı, tele və radiokanallarda vaxtaşırı çıxışlar etmiş, dinləyicilər qarşısında canlı olaraq məruzələr oxumuşdur.

O, mütəxəssislərimizin çoxsaylı sahə lüğətlərinə ehtiyac duyduğu müstəqilliyimizin ilk illərində yeni sayaq lüğətlərin tərtibi üsulunu yaratdı. Nəzəri cəhətcə mümkün olan bütün istiqamətlərdə praktiki surətdə tərcüməyə imkan verən lüğətlər tərtib elədi. Ana dilimizlə yanaşı mütəxəssislərimizin yaxın və uzaq xariclə əlaqələr yarada bilməsi üçün rus və ingilis dillərinin daxil olduğu üçdilli lüğətlər Rəsul müəllimin tətbiq etdiyi yenilik sayəsində 6 istiqamətdə tərcüməyə imkan verir. Başqa sözlə, belə lüğətlər 6 ədəd ikidilli lüğəti əvəz edir. O, təkcə kimya, neft və qazın emalı, ekologiya sahələri terminlərinin lüğətlərini deyil, həmçinin daha çox ehtiyac duyulan maliyyə, iqtisadiyyat və biznes terminlərinin daxil olduğu 5 lüğət tərtib edərək istifadəçilərin ixtiyarına vermişdir.

Rəsul Rəxşanlı müxtəlif səpkili oyun dəstləri və oyunlar yaradaraq patentlər almaqla Azərbaycana yeni imic qazandırmışdır. Nəticədə ölkəmiz idman aləminə idman masaüstü intellektual oyunları vermiş barmaqla sayıla bilinən dərəcədə azsaylı ölkələrdən birinə çevrilmişdir. Bütün yaş hədlərindəki adamlar üçün nəzərdə tutulmuşdur. Azyaşlı uşaqların intellektual inkişafında əyləncəli oyunların təsirinin qənaətbəxşliyi ilə razılaşmayan alim onlar üçün, yəni 2, 3, 4 və 5-dək saya bilən uşaqlar üçün məxsusi idman oyunları yaratmışdır. Müəllifin fikrincə, belə oyunlar üzrə keçiriləcək şəhər, ölkə, qitə və dünya çempionatları, eləcə də müxtəlif miqyaslı turnirlər azyaşlı balaların intellektual inkişafına kifayət dərəcədə müsbət təsir göstərə biləcəkdir. Belə ki, əyləncəli oyunlara ciddi yanaşmağın vacib olmadığını anlamaq dərəcəsində ağıllı olan balacalar yarışlarda mükafatlar uğrunda mübarizə aparmaq naminə ciddi məşqlər etmək zərurəti qarşısında qalacaqlar. Bu istiqamətdəki yeniliklər təhsil sahəsi mütəxəssislərini yəqin ki maraqlandıracaqdır.

Rəsul müəllim dövri mətbuatda vaxtaşırı olaraq şeir və hekayələrlə də çıxış edir. Mövzu və süjet rəngarəngliyi ilə seçilən yazılarında insana, onun həyatına gözəllik gətirən dəyərlərə, məqamlara toxunulur. Müəllifin qəhrəmanları müxtəlif xarakterlərə, dünyagörüşünə, peşəyə malik olsalar da, onları birləşdirən dəyərlər ümumidir - ədalət, zəhmətsevərlik, insanpərvərlik, vətənpərvərlik. Rəxşanlının sənədli hekayələr silsiləsi oxucular tərəfindən daha çox sevilir. Bu silsilədən olan yazılarının qəhrəmanları isə müxtəlif xalqların dəyərli övladlarıdır.

Erudisiyalı və ensiklopedik biliyə malik Rəsul müəllim həm də geniş qəlbə, xeyirxah niyyətə və xoş xasiyyətə malikdir. Bu ədalətsevər insan dostcanlıdır, daim kömək əli uzatmağa, bildiyi, malik olduğu ilə bölüşməyə hazırdır. Onun bildiyi və malik olduğu isə heç də az deyildir. Alim kimi yetişmələrinə dəstək verdiyi yerli və əcnəbi mütəxəssislər də bunları yaxşı bilirlər. Gənc tədqiqatçılara dissertasiya mövzusu verilməsində, nəzəri biliklərdə və təcrübi işlərdə yardım göstərilməsində əlindən gələni əsirgəməyir.

Onun elm qarşısındakı xidmətləri dəyərləndirilmişdir. D.İ.Mendeleyev adına Ümumittifaq Kimyaçılar Cəmiyyətinin mükafatı, "Elm" nominasiyası üzrə 2 dəfə "Humay" milli mükafatı laureatıdır. "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalına, "AMEA-nın Fəxri fərmanına, "İlin alimi" fəxri adına layiq görülmüşdür.

Yorulmaq bilməyən Rəsul Rəxşanlı bu gün də bir neçə istiqamətdə tədqiqatlar aparır, axtarışlar edir, yeni əsərlər üzərində işləyir.

**Keykavus ƏCƏMOV,**
**Kimya elmləri doktoru, professor,**
**Təvəkkül ŞÜKÜRBƏYLİ,**
**Filologiya elmləri doktoru, professor.**
**Sabir HÜSEYNOV,**
**Yazıçı.**

# İdmançımızın uğuru

Hüseynov Pərviz Şahin oğlu 1979-cu ildə Sabirabad rayonunda anadan olub, ali təhsillidir. Kiçik yaşlarından idmanın müxtəlif növləri ilə məşğul olmağa başlayıb. 1993-cü ildən isə şərq-əlbəyaxa döyüş növü ilə məşğuldur. Kontakt karate, Şotokan karate-do üzrə I-dan, Qocyu-Ryu Karate-do, Kabudo və Kempo-ryu idman növləri üzrə isə III-dan qara kəmər sahibi, milli yığma komandasının üzvüdür. Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kabudo Kempo Novləri İdman Federasiyasının baş katibidir. Bakı, Respublika, Avropa və Dünya çempionatlarının qalibi və qızıl medallar laureatıdır. Bir çox respublika və beynəlxalq seminarlarda iştirak etmiş, çoxlu sayda fəxri diplomlara layiq görülmüşdür.

Sonuncu qalibiyyəti isə 2-6 may tarixlərində Ukraynanın Xarkov şəhərində kişilər arasında keçirilən Kempo-Karate və Kabudo idman növü üzrə Beynəlxalq seminar və Dünya çempionatında ölkəmizi uğurla təmsil edərək, komanda kata növündə II yer, fərdi kata növündə və nümunəvi çıxışlarına görə isə I yerə layiq görülərək, bayrağımızı ən yüksək zirvəyə qaldırmasıdır.

Pərviz Hüseynov ötən il Azərbaycan Gənclər və İdman Nazirliyi tərəfindən Əməkdar idman ustası adına



layiq görülmüşdür.

Pərviz müəllimə tutduğu bu uğurlu yolda çoxlu nailiyyət və daim zirvələrdə olmağı arzu edirik.

**"Respublika".**

# Laçın: inam qələbəyə aparır

**Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində yerləşir. Şimaldan Kəlbəcər rayonu, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, cənubdan Qubadlı rayonu, qərbdən isə Ermənistan ilə həmsərhəddir. Ərazisi 1835 kvadratkilometrdir. Rayonda işğaldan əvvəl bir şəhər, bir qəsəbə, 125 kənd olub.**

Ərazisinin 75781 hektarı kənd təsərrüfatına yararlıdır. 33205 hektarını əsasən palıd, ardıc, cökə, vələş, fıstıq və s. qiymətli ağaclardan ibarət meşə zolağı, 72000 hektarını isə yaylaq sahələri, 1470 hektarını isə meyvə bağları təşkil edir. Ərazi əsasən çay daşı, qum, gil, qrafit, dağ büllur, mərmər, civə, uran, kobalt, xrom, qızıl və dəmir yataqları kimi faydalı qazıntılar ilə zəngindir. Rayon ərazisində 200-ə yaxın tarixi, mədəniyyət və memarlıq abidələri, onlarca kurqan, qala tipli arxelogiya baxımından qiymətli olan abidələr və digər tikililər var idi.

1992-ci il may ayının 18-də rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı 267 nəfər sakin, o cümlədən 18 nəfər 16 yaşına çatmamış uşaq şəhid olub, 120 nəfər sağlamlığını itirib, 66 nəfər girov götürülüb, yüzlərlə uşaq yetim qalıb. Rayonun bütün yaşayış məntəqələri ermənilər tərəfindən yandırılaraq məhv edilib, qədim tarix və mədəniyyət abidələri vandalizmə məruz qalıb. İşğal nəticəsində rayona 7,1 milyard ABŞ dolları məbləğində ziyan vurulub. **İgidliyə və göstərdiyi şücaətə görə 5 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.**

Rayonun 77 min nəfərdən çox sakini 27 ildir respublikanın 58 şəhər və rayonunda, o cümlədən Ağcabədi rayonunun Taxtakörpü ərazisində məcburi köçkün həyatı yaşayır. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na və Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq məcburi köçkünlər üçün ölkənin müxtəlif ərazilərində qəsəbələr, yaşayış massivləri inşa olunub. Digər məcburi köçkünlər kimi, Laçın rayonundan olan köçkünlər də bu qəsəbələrdə evlə təmin ediliblər. Laçın rayonunun icra qurumlarının fəaliyyət göstərdiyi Taxtakörpü ərazisində bütün infrastruktura malik 610 ailəlik üç qəsəbə salınıb.

Laçın obalarının başlandığı Taxtakörpüdə tikinti-quruculuq işləri vüsət alıb, vaxtı ilə səhranı xatırladan həmin yerlər yeni libasa bürünüb. Bura indi, sözün əsl mənasında, şəhəri xatırladır, bütün infrastruktura malik bir yaşayış məntəqəsinə çevrilib. Sakinlər rahat, işıqlı, hər cür şəraiti olan mənzillərdə asüdə yaşayırlar. Laçınlılar onlara göstərilən dövlət qayğısından, isti və səmimi münasibətdən həmişə razılıq edirlər. Onlar qeyd edirlər ki, Ermənistanın hərbi təcavüzü nəticəsində doğma yurdlarından didərgin düşən, faciələrlə üzləşən, illər uzunu qazandıqları var-dövləti itirən, yıxılan bir elin yenidən ayaq üstə qalxmasına, sabitliyə, əmin-amanlığa, həyat şəraitinə, mənəvi köməyə görə xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini həmişə minnətdarlıqla yad edirlər.

Rayon icra hakimiyyətinin başçısı Aqil Nəzərli söhbət zamanı dövlət tərəfindən göstərilən diqqət və qayğının insanlar tərəfindən dərin razılıqla qarşılandığını dönə-dönə qeyd edərək deyir:

- Bu gün qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların problemlərinin həlli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu gün hər bir laçınlı bu qayğıya öz əməli işi ilə cavab vermək üçün ləyaqətlə çalışır, dövlətə yük olmamaq üçün sahibkarlıqla məşğul olur. Yerli sahibkarlara münbit şərait yaradılıb, əsassız yoxlamalara son qoyulub. Fermerlər Bakı, Sumqayıt şəhərlərini ət və süd məhsulları ilə təmin edirlər.

Mübaliğəsiz demək olar ki, Laçın dağların qoynuna sığınmış, əsl dağ qartalını xatırladan və ana təbiətin bir incisidir. Ermənistan öz havadarlarının köməyi ilə əzəli və əbədi Azərbaycan torpaqlarını zəbt edib. Həmin yurd yerlərimiz Ermənistan tərəfindən tar-mar edilib, dini və mədəni abidələr dağıdılıb. 2016-cı il aprel ayının əvvəllərində Azərbaycan ordusu erməni silahlı qüvvələrinin hücumunun qarşısını cəsarətlə alaraq əks-hücumla bir neçə vacib yüksəklikləri işğalçılardan azad edib. Bu sarsıdıcı zərbə Ermənistanı ağır bir duruma salıb. İndi hər birimizdə çox böyük ruh yüksəkliyi yaranıb. Bu fikirləri hər bir laçınlının dilindən eşitmək mümkündür.

Laçın təbii və nadir inci hesab olunan Turşsu, İstisu və digər mineral bulaqları ilə məşhur olub. Bu yerlərdə bitən kəklikotu, itburnu, qatırquyruğu, çobanyastığı, solmazçiçəyi, bağayarpağı, yemişan, baldırğan, qırxbuğum və digər saysız-hesabsız dərman bitkiləri min bir dərdə dərman olub. Dağlarda dağ keçisi, cüyür, qaban, ayı, bəbir, canavar, tülkü, dələ, dovşan və digər heyvanlar var idi. Başı göylərə dəyən dağların zirvəsində qartallar uçardı. Ta qədimdən Laçın heyvandarlıq, arıçılıq və tərəvəz məhsullarının istehsalı ilə xüsusilə seçilirdi.

Laçın həm füsunkar təbiətinə, həm də strateji əhəmiyyətinə görə çox mühüm ərazidə yerləşirdi. Ermənistanla Dağlıq Qarabağ arasında ən qısa və əlverişli yol buradan keçirdi. Ona görə də ermənilər həmişə Laçını ələ keçirmək niyyətində olublar. 1992-ci ildə xain düşmən bu fürsəti əldən qaçırmadı. May ayının 18-də Laçını işğal edən ermənilər Gorus-Laçın-Xankəndi dəhlizinin açılmasına nail oldular. Düz iyirmi yeddi ildir ki, respublikamızın 59 şəhər və rayonuna səpələnmiş laçınlılar yurd həsrəti, vətən nisgili ilə yaşayırlar.

Keçmiş qəhrəmanlıq tarixinə söykənən laçınlıları uzun illərdir ki, bu suallar düşündürür: Laçın nəyə görə müdafiə oluna bilmədi? 1905-1918-ci illərdə Laçın ermənilərə layiqli cavab vermiş və dağlar qoynunda qartal kimi məğrur dayanmışdı. Bəs 1992-ci ildə yurd yerlərimizi niyə qoruya bilmədik? Haqlı suallardır.

Mərd oğullar diyarı olan Laçın 1992-ci ildə başı hakimiyyət davasına qarışan o vaxtkı Azərbaycan iqtidarının səhlənkarlığının qurbanı oldu. Qəfil kürəyə sancılan xəncər kimi. İşğal nəticəsində Laçın şəhərində, Qayğı qəsəbəsində və 125 kənddə olan 13.475 yaşayış evi, 48 sənaye, 63 kənd təsərrüfatı müəssisəsi, 217 mədəni-maarif, 101 məktəb, 142 səhiyyə, 460 ticarət şəbəkəsi itirilib. Ümumilikdə, rayona 7.1 milyard ABŞ dolları həcmində ziyan dəyib. Rayonun 34 min hektar meşə massivi, 72 min hektar yaylaq sahəsi erməni tapdağı altında qalıb və Laçında 200-dən çox tarixi abidə erməni vandalizminin qurbanı olub.

Qocaman tarix heç nəyi unutmur. Bu bir həqiqətdir ki, XX əsrin əvvəllərində Zəngəzur, İrəvan və Arazboyu ərazilərdə dəhşətli vəhşiliklər törədən erməni silahlı dəstələrinə həlledici və öldürücü zərbəni Xalq qəhrəmanı Sultan bəyin rəhbərliyi altında Laçının igid övladları vurub. Zabux dərəsində erməni silahlı birləşmələrini mühasirəyə alaraq düşmənə sarsıdıcı zərbələr endirib. Beləliklə də Qarabağda yaşayan Azərbaycan əhalisini gözləyən böyük bir təhlükə aradan qaldırılıb.

Müharibə dəhşətləri, doğma yurd yerlərinin itirilməsi, igid oğulların şəhid olması, torpaqlarımızın işğala məruz qalması insanları ümidsizliyə, ruh düşkünlüyünə düçar etmiş, digər tərəfdən, o vaxtkı rəhbərliyin günahı üzündən respublikada aclıq, səfalət hökm sürürdü. Bütün bu özbaşınalığa, hərc-mərcliyə, anarxiya və xaosa görə laçınlılar da sabaha olan ümidlərini itirmişdilər. Lakin 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xalqımızın başının üstünü almış bütün bəlalara son qoydu. Ölkə parçalanma təhlükəsindən xilas oldu. Vətəndaş müharibəsinin qarşısı alındı. Qanunsuz silahlı dəstələr ləğv edildi. Cəbhə xəttində atəşkəs elan olundu. Ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar olmağa başladı. İtirilmiş ümidlər yenidən dirçəldi. Ölkədə güclü qayda-qanun yaradıldı. Ermənistanın hərbi təcavüzü nəticəsində məcburi köçkünə çevrilmiş insanlara diqqət və qayğı artırıldı.

Hazırda Ağcabədi rayonu ərazisindəki keçmiş qış yataqlarındakı Laçın obaları abad və yaraşıqlı Qayğı qəsəbəsindən başlanır. Ötən il rayonun həyatında əsl dönüş ili, həyatın bütün sahələrində inkişaf ili, təşəbbüs, əhaliyə qayğı ili kimi yadda qalıb.

Taxtakörpü ərazisində məskunlaşan laçınlı məcburi köçkünlər iki ildir ki, pambıqçılıq və baramaçılıqla məşğul olurlar. Bu məqsədlə ərazidə 10 min ədəd tut tingi əkilib, pambıq əkini üçün nəzərdə tutulmuş 101 hektarda pambıq əkilib.

Laçın Azərbaycanın əzəli və əbədi torpağıdır. Bu qədim yurd yerimiz hər bir azərbaycanlının qəlbində yaşayır. Hər bir laçınlının ürəyində qəti bir inam vardır ki, igid və cəsur övladlar yetirmiş, Azərbaycan elminə, mədəniyyətinə görkəmli insanlar bəxş etmiş Laçın və eləcə də digər işğal altında qalan torpaqlarımız dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində tezliklə işğaldan azad olunacaq.

Laçınlılar həmişə dövlətimizin, möhtərəm Prezidentimizin qayğısını, diqqətini, doğma münasibətini yaxından hiss ediblər. Vaxtilə susuz səhralara çevrilmiş yerlərdə indi abad və yaraşıqlı qəsəbələr salınır. Laçınlılar öz adət-ənənələrini qətiyyətlə, böyük ruh yüksəkliyi ilə yaşadırlar. Onlar torpaqların işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrini gözləyirlər. Bu qəti inam və ruh yüksəkliyi hər bir laçınlının qəlbində qərar tutub.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Tariximizi, mədəniyyətimizi, məişətimizi yaşadan muzey

**Hər qarışında bir tarix yatır qədim Şabran yurdunun. Burada saysız-hesabsız tarixi yerlər, abidələr, arxeoloji qazıntılar Şabranın qədim yaşayış məskəni olmasından xəbər verir. Gülüstani-İrəm torpağının əsrlərin o tayından xəbər verən, eramızdan əvvəl I minilliyə aid edilən Şabran şəhəri, dağların sinəsində əzəmətini bu gün də qoruyub saxlayan e.ə. IV-V əsrlərin yadigarı, unikal tarix-memarlıq abidəsi Çıraqqala, Çaqqallı təpə, Almaz təpə, Gülüstan təpə, Göytəpə, Ağmul, Əmirxanlı yaşayış yerləri, ziyarətgahlar, məscidlər, yaşayış evləri, qədim qəbiristanlıqlar özündə bütöv bir tarixi yaşadır.**



Bütün bunlar barəsində rayon tarix-diyarşünaslıq muzeyinə baş çəkən hər kəs geniş məlumat alır, eksponatlarla tanış ola bilir. Şabran şəhərinin tarixi barədə muzeydə daha geniş və maraqlı məlumatlar toplanılıb. Burada toplanan elmi materiallardan məlum olur ki, zəngin tarixə malik Şabran Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatında mühüm iz qoyan, şəhərsalma tarixinin nadir nümunələrindən olan şəhərlərimizdəndir.

Şabranda qaynar şəhər həyatı əsasən IX-XV əsrlərə təsadüf edib. Tarixən böyük savaşların meydanına çevrilən şəhər XIII əsrin ortalarında monqolların hücumu nəticəsində ciddi dağıntılara məruz qalır. XIII əsrdən etibarən Şabran tənəzzülə uğrayır və bu günümüzə qədim şəhərin xarabalıqları gəlib çıxıb. Bu xarabalıqları arasında tariximizin bir çox sirli qatları, öyrənilməmiş səhifələri, əfsanə



və rəvayətlərlə dolu olayları qalıb. XVII əsr məşhur türk səyyahı və tarixçisi Övliya Çələbinin verdiyi məlumata görə, Şabranda yetmiş məhəllə və hər məhəllənin öz məscidi olub. Bu da şəhərin bir vaxtlar gur həyatından xəbər verir. Çələbinin yazdığına görə, gözəl havası və saf suyu ilə Şabran Təbrizdən sonra ikinci şəhər hesab olunurdu. Qədim Şabran şəhərinin qalıqları Şahnəzərli kəndi yaxınlığında yerləşir. Tarixçi Əsədulla Hüseynovun sözlərinə görə, bu kəndin tarixi min illərlə ölçülür. Burada 1979-cu ildən başlayaraq 0,9 hektar sahədə (beş yerdə) qazıntı işləri aparılıb. Qazıntılar nəticəsində altı metr zəngin arxeoloji təbəqə yaranıb. Arxeoloqlar dörd tikinti dövrü aşkara çıxarıblar. Azərbaycanda IX əsrə aid ilk kanalizasiya sistemi məhz Şabranda aşkar olunub. Su kəmərlərinin qalıqları, orta əsr Azərbaycan şəhərlərində ilk küçələr də Şabranda aşkara çıxarılıb.

Tarixçinin fikrincə, şəhərdə yaşayış eramızın V-VI əsrlərindən mövcud olub. Həmin vaxt burada 15-20 min nəfər əhali yaşayıb. İpək Yolunun üzərində yerləşən Şabran şəhəri tarix boyu üç dəfə dağıntıya məruz qalıb: "Qədim Şabranda tapılan maddi-mədəniyyət nümunələri burada tarixən müsəlmanlarla yanaşı, xristian və yəhudilərin də yaşadığını deməyə əsas verir. Şabran Azərbaycanın ən qədim tolerantlıq məkanlarından biri olub. Həmçinin yüksək səviyyəli şəhərsalma mədəniyyəti ilə tanınıb. Həmin dövrdə tikinti materialı kimi geniş istifadə olunan qırmızı kərpic məhz Şabran şəhərində istehsal edilirdi".

Ümumiyyətlə, rayonun tarixini, mədəniyyətini, məişətini öyrənmək baxımından muzeyin rolu çox böyükdür. Muzeyin direktoru Bəsti Məmmədova deyir: Şabran Tarix-diyarşünaslıq muzeyi 1991-ci ildən fəaliyyət göstərir. Muzey ümummilli lider Heydər Əliyevin 75 illiyi ərəfəsində istifadəyə verilmişdir. Bu mədəniyyət ocağı maddi və mənəvi sərvətlərlə zənginləşdirilərək tamaşaçıların ixtiyarına verilmişdir. Burada 3722 eksponat qorunub saxlanılır. Muzeyin zəngin ekspozisiyasında bütün tarixi dövrləri əks etdirən 1252 eksponat nümayiş olunur. Muzey ekspozisiya hissəsindən, foye və 3 zaldan ibarətdir. Ekspozisiyanın birinci zalında Şabran rayonunun təbiəti və tarixi abidələri haqqında informasiyalar və Şabranın qədim dövrü əks olunmuşdur. İkinci zalda Şabran rayonu orta əsrlərdə, Azərbaycan tarixinin yeni dövründə, xanlıqlar, Azərbaycanın Rusiya imperiyası dövrü, həmçinin Azərbaycan Demokratik Respublikasının yaranması, SSRİ-nin tərkibində Azərbaycan, Azərbaycanın hərbi tarixi, Şabran rayonunda hərbi vətənpərvərlik tərbiyəsini əks etdirən materiallarla zəngindir. 3-cü zalda müstəqilliyə gedən yol. Azərbaycan müstəqillik illərində. Müasir Azərbaycan tarixinə dair məlumatlar ekspozisiyasında nümayiş etdirilir. Tarixin müxtəlif dövrlərinə aid məişət, zinət, bəzək əşyaları, silahlar, əmək alətləri və bölgənin tarix və mədəniyyətini, sənətkarlığını əks etdirən eksponatlar muzeyin ekspozisiyasını bəzəyir.

Bu günlər muzeyə gələnlərin sayı daha çoxdur. "Muzeylər günü" ərəfəsində biz də yolumuzu bu mədəniyyət ocağından saldıq. Həmin gün burada şabranlı şair və yazıçıların, rayonun məktəblilərinin də iştirak etdiyi Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Etnoqrafiya İnstitutunun Şabran arxeoloji ekspedisiyasının rayonun Aygünlü kəndində e.ə. IV əsrə aid Çaqqallı təpə abidəsində aparılan qazıntılar zamanı əldə olunan eksponatların muzeyə təqdimat mərasiminin iştirakçısı olduq. Ekspedisiyanın rəhbəri Şabranın tarixini yenidən tədqiq edən tarix üzrə fəlsəfə doktoru Səfər Aşurov Çaqqallı təpə abidəsində aparılan arxeoloji qazıntılar zamanı 5 min illik tarixi olan saxsı qablar tapıldığını qeyd etdi. Bildirdi ki, Şabranın Çaqqallı təpə abidəsi Azərbaycanın ən qədim tarixi abidələrindən biridir. Ümumiyyətlə, Şabranda geniş arxeoloji qazıntıların aparılmasına, buradakı tarixi abidələrin tədqiqinə çox ciddi ehtiyac vardır.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

*Səyahət dəftərindən*

# Amerika təəssüratları

**Məqalə müəllifi Vüqar Babaxanov ixtisasca hüquqşünasdır və əsas xobbisi dünyanın ayrı-ayrı ecazkar ölkələrini gəzmək və onlar haqqında bu səfərlərdən aldığı təəssüratları azərbaycanlı oxucularla bölüşməkdir. Qeyd edək ki, həm də ölkəmizin əsas futbol komandalarından biri olan "Qarabağ" futbol klubunun azarkeşlərindəndir və ötən 20 il müddətində komandanın həm Azərbaycanda, həm də xarici ölkələrdə keçirilən avrokubok oyunlarının hamısını stadionda izləyib. Onun səyahət etdiyi ölkələr içərisində: Afrika Misirin Şarm-Əş-şeyx, yaxın Şərqdə Dubay, Cənubi-Şərqi Asiyada - Tailandın Banqkok şəhəri ilə yanaşı, Patayya və Phuket adaları, Malayziyada Kuala-Lumpur şəhəri və Langkavi adası, İndoneziyada Cakarta şəhəri ilə, Bali adası, Sinqapur, Avropada İsveç, Norveç, Almaniya, Fransa, Belçika, Niderland, İspaniya, Macarıstan, Çexiya, Avstriya, Danimarka və İtaliyanı göstərmək olar. O, son səyahətlərində ABŞ və Kanada da olub. Səyahətçi Amerikanın əsas şəhərləri olan Mayami, Orlando, Çikaqo, Vaşinqton, Nyu-Yorkda gördüklərini, eşitdiklərini və ayrı-ayrı nüfuzlu mətbuat səhifələrini izləyərək, bildiklərini və əldə etdiyi maraqlı faktları oxucuların diqqətinə çatdırır.**

Okeanın o tayına səfərimi cəmi iki həftəlik planlaşdırırdım. Birinci həftəsini Nyu-York şəhərinə, ikincini isə Mayamiyə həsr etməli idim. Lakin məndən asılı olmayan səbəblərə görə səyahət qrafikim dəyişdi.

Amerika, həqiqətən də, macəralar ölkəsidir. Az bir müddət ərzində buradakı müxtəlif mədəniyyətlərlə tanış oldum. Elə belədən deyilməyib - Amerika multikulturalist ölkədir, çox nəhəng və qüdrətli dövlətdir, daha dəqiq desək, iqtisadi və sosial cəhətdən həddən ziyada inkişaf etmişdir. Amerika yeraltı və yerüstü sərvətləri ilə zəngin bir ölkədir. Bu ölkə iqlim müxtəlifliyinə malikdir: Alyaska ən soyuq, Mayami ən isti yeridir. Amerikanın ətrafında xeyli miqdarda körfəzlər vardır. Onlardan ən məşhuru Kaliforniya körfəzidir. Amerikanın qərb hissəsini daha çox dağlıq ərazi təşkil edir. Amerikanın ən çox Amerika edən Kolorado qayasıdır. Bu, dünyanın ən böyük qayasıdır. Bu səyahətim çox uzun və maraqlı keçdi.

Burada uzun müddət yaşayan tanışlarımın təkidi ilə Amerikayla tanışlığa Nyu-Yorkdan deyil, cənub ştatlardan birinin tarixi, mədəni, turistik məkan sayılan və Atlantik okeanına çıxan Çarlston və buna bənzər şəhərlərdən başladım. Mən bu cür də etdim və yanılmadım. Gerçək Amerikanın ruhunu və nəbzini məhz bu kimi şəhərlərdə daha çox hiss etmək mümkün olur. Çarlston, Cənubi Karolinanın, birbaşa Atlantik okeanın sahilində yerləşən şəhəridir. Turizm potensialı ilə məşhurdur. Onu da qeyd edim ki, 2016-cı ildə Kond Nast Treveler şirkəti dünyanın ən xeyirxah və bədxah şəhərlərinin reytinqini hazırlayarkən, dünyanın ən xeyirxah şəhərləri siyahısına liderliyi ABŞ-ın məhz Çarlston şəhəri edirdi. Yaranması və inkişafı 200 illik tarixə malikdi. Bununla bağlı, burada çoxsaylı muzeylərə rast gəlmək mümkündür.

Şəhərdə turistlər üçün avtomobillərlə yanaşı, nəqliyyat vasitəsi kimi, faytonlardan da istifadə edilir. Dünyanın hər yerindən gələn turist qrupları növbə ilə faytonlara minir və gəzintiyə yollanırlar. Turistlərin faytonlardan istifadə etmələri üçün bəzən böyük növbə yaranır. Bu faytonlar isə ildə bir milyon dollara yaxın pul qazandırır. Rəqəm nə qədər təəccüb yaratsa da, bu belədir. Bu yerdə istər-istəməz doğma Bakımız yadıma düşdü. Axı, Bakıda vaxtilə çoxsaylı faytonlar vardı. Bu gün isə şəhərimizdə cəmi bir əlin barmaqları sayında belə fayton qalmayıb. Bu da özlüyündə təəccüb doğurur ki, niyə Amerika kimi varlı dövlətdə özlərinə yad olan bir sahə bu şəkildə qayğı ilə qorunub saxlanılıb və inkişaf etdirilməkdədi. Ölkəmizdə isə faytonçuluq sənəti qədim tarixə malik olduğu halda, demək olar ki, artıq unudulmaqdadır. Üstəlik indiki zamanda Bakıya gələn turistlərin sayı keçmişlə müqayisədə dəfələrlə artıq olan bir vaxtda. Bu və buna bənzər sahələrə belə laqeydlik olmamalıdır. Ona görə də hesab edirəm ki, faytonçuluq təsərrüfatının Bakıda yenidən bərpa və inkişafı vacibdir.

Qeyd edim ki, çox qədim şəhər olan Çarlston yalnız turizmdən gələn gəlirlə dolanır. 1800-cü illərdə Çarlston dünyanın qul bazarı kimi də çox məşhur imiş. Şəhərin mərkəzində bunu xatırladan və hazırda yarmarka kimi fəaliyyət göstərən bazarı misal çəkmək olar. İqlimi bizim Lənkəranı xatırladır. Tez-tez yağışlar yağır. Hər yer yaşıllıqdı. Sentyabrın sonundan rütubət azalır. Hava quru və sərin olur. Ümumiyyətlə, Cənubi Karolina ştatı qara dərililərin üstünlük təşkil etdiyi ştatdı. Başqa ştatlara nisbətdə Çarlston şəhərində gəzintiyə çıxarkən, dükanlarda, çimərlikdə, dövlət idarələrində və bütün sahələrdə onlara daha çox rast gəlmək olar. Cazibədar və tarixi qədim şəhərin mərkəzi Atlantik okeanına axan çay, Eşli və Kuper tərəfindən yaradılan bir yarımadada yerləşir. Bu iki çay ayrı bir gözəllik verir şəhərə. Amerikalılar Çarlstonu çox sevirlər, iqlimi və okeana çıxışına görə. Odur ki, turist sarıdan Çarlston korluq çəkmir. Meqamarketlər başqa bir mövzudu. Onların ən çox, sahəcə böyük olması diqqəti cəlb edir.

Bir neçə həftə Çarlstonda qaldıqdan sonra mən artıq başa düşməyə başladım ki, Amerika üçün 2 həftə çox azdı. İllər belə yetməz bu ölkəni kəşf etməyə. Ona görə də Amerika dövlətinin mənə vediyi viza müddətinin 6 ayından, beş ayını Amerikanın müxtəlif şəhərlərinə həsr etdim. Növbəti yol tutduğum şəhər məşhur Mayami idi. Dəbdəbəli və varlı həyat, çimərliklər, qızmar günəş (havanın hərarəti 50 dərəcəyə qədər çatırdı). Dünyaca məşhur olan Mayami. Mayami ABŞ-nın Florida ştatının ikinci böyük şəhəridir. Atlantik okeanı sahilində bir sahil şəhərdir. Mayami dünyanın bir çox ölkəsindən gəlmiş mühacirlərin evidir. Bölgədə yaşayan insanların 50 faizə qədəri Mərkəzi və Cənubi Amerikadan gələn ispandillilərdir. İngilis dili ilə yanaşı, hər yerdə ispandilli yazılara rast gəlmək mümkündür. Əhalinin əksəri ispan dilində mükəmməl danışır.



Mayamidə minlərlə fabrik və zavod var. Mayami limanı beynəlxalq ticarət və sərnişin gəmilərini qəbul edir. Buranın havası yerli kənd təsərrüfatının inkişafında böyük rol oynayır və Birləşmiş Ştatlarda ən böyük sənaye mərkəzlərindəndir. Turizm bölgənin ən böyük gəlir mənbəyidir. Hər il buraya Amerikanın özü də daxil olmaqla, dünyanın hər yerindən 15 milyona yaxın turist gəlir. Mayami limanından kruiz gəmiləri müsafirləri Karib hövzəsi ölkələrinə daşıyır. Hazırda bu şəhərdə 3 milyona yaxın adam yaşayır. Ən məşhur küçəsi Linkoln roud və Ouşen prospektidi. Burada hər şey tapmaq olar. Qiymətlər də elə baha deyil. Amma ümumiyyətlə bahalıqdır. Mayamiyə ən yaxşı səyahət üçün vaxt aprel və may ayları sayılır. Nə çox isti olur, nə də soyuq. Şəhərin mərkəzində yerləşən, alış-veriş edə biləcəyiniz, yemək yeyə biləcəyiniz və əylənə biləcəyiniz ən sevilən yerlərdən biri "Bayside Bazarı" adlanan sahilyanı limanlardan bura yaxın olan adalara ekskursiya təşkil olunur və bu gəmi gəzintisində mən də iştirak etdim. Şəhərin okeandan gözəl görüntüsü ilə yanaşı, bu adalarda dünyanın ən məşhur insanlarının villaları yerləşir. Hər bir malikanənin kimə məxsus olduğu bələdçi tərəfindən həm ispan, həm də ingilis dillərində elan olunur. Barak Obama, Castin Biber, Madonna, Şakira, Beyonse, Devid Bekxem, Frenk Sinatra, Alla Puqaçova və s. Ən böyük və bahalı malikanə isə, viaqra dərmanını icad edən həkimə məxsusdu - 80 milyon dollar. Burada çoxlu muzeylərə də rast gəlmək olar. Xüsusi olaraq gözəlliyi ilə seçilən və YUNESKO-nun dünya irsi siyahısında yer alan "Everglades Milli Parkı" qeyd etmək istərdim. Göstərilən park 610 min kvadratmetr sahəyə malikdir. Bu göstəriciyə görə Amerikanın ən böyük 3-cü milli parkı hesab edilir. 1947-ci ildə yaradılan parkın ən əhəmiyyətli xüsusiyyəti planetimizdəki bütün ağac növlərini ehtiva edən üç yerdən biri olmasıdı.

Sentyabr ayı olduğuna görə havalar mülayim keçirdi. Kütləvi informasiya vasitələrindən güclü "Florens" qasırğası haqda məlumatlar daxil olmaqda idi. Qeyd etmək istərdim ki, qasırğanın sahildən uzaqda olması və hələ sahilə 20 gündən sonra çatası halda, televiziya, radio, internet və sosial şəbəkələr qasırğanın sürəti, gücü və istiqaməti ilə əlaqədar, mütəmadi olaraq gündəlik xəbərlərdə əhalini məlumatlandırırdılar. Nəhayət, qasırğanın sahilə çatmasına 3-4 gün qalmış, Cənubi və Şimali Karolina ştatlarında fövqəladə vəziyyət elan olundu. Bütün dövlət və iaşə obyektləri bağlandı. Qalanlar qaldı, gedənlər isə müvəqqəti olaraq şəhəri tərk edib, təhlükəsiz məsafəyə köç etməyə məcbur oldular. Ən çox bu hadisəyə sevinən həmişəki kimi, məktəbli və tələbələr oldu. Duran yerdə 1 həftəlik istirahət qazandılar. İnsanlar çox nümunəvi şəkildə şəhəri tərk edirdilər. Dövlət və aidiyyəti qurumların öz işinə peşəkarcasına yanaşması və insanların bu işdə onlara köməyi və qaydalara riayət edilməsi bir vəhdət təşkil edirdi.

Bir maraqlı fakt da xüsusi diqqətimi çəkdi. Qasırğalar Amerika üçün yenilik deyil. Hər il biri-birindən güclü qasırğalar sahilyanı ərazilərə külli miqdarda ziyan vurur. Daşınan və daşınmaz əmlakları viran qoyub məhv edir. Bununla belə, həmin zonalarda məskunlaşma azalmır, əksinə artır. Yenidənqurma işləri sürətlə davam edir. Yeni yaşayış massivləri və parklar salınır. Bu işdə sığorta orqanlarının rolu da az deyil. Sözsüz ki, dövlətin dəstəyi ilə. Heç bir sığorta orqanının ixtiyarı yoxdur ki, vətəndaşın müraciətinə baxmasın. Riskli və təbii fəlakətlərə məruz qalan ərazi belə olsa, daşınan və daşınmaz əmlak sığortalanır. Bu da insanların inamını artırır. Həmin ərazilərdə yaşamağa stimullaşdırır. Şəhəri tərk edən əhalinin üzlərinə baxdıqda, heç vaxt deməzsən ki, onlar təhlükəli ərazini tərk edirlər. Əksinə, sanki bir şəhər 1 həftəlik məzuniyyətə yola düşür. Mən heç kəsin simasında qorxu və ya həyəcan hissi görmədim. İnsanların təbii fəlakətlərə olan münasibəti idi, bu...

Mən də Qazaxıstandan olan dostumla onun avtomobilində, maşın karvanına qoşularaq istiqamətimizi Florida ştatının paytaxtı Orlando şəhərinə tutduq. Yol boyu sahilyanı əraziylə gözəl Atlantik okeanını seyr edərək təhlükəli zonadan uzaqlaşırdıq. Nəhayət, axşama yaxın gəlib çatdıq Orlandoya. Trend-in Turizm və Səyahətlər üzrə Ümumdünya Şurasının ("WTTC") yaydığı məlumata istinad və verdiyi xəbərə görə turizmdən ən çox asılı olan şəhərlərin arasında birinci onluqda ABŞ-nın Orlando şəhəri yer alır (ÜDM-in 18,7 faizi). Dünyanın ən əyləncəli şəhərləri arasında isə liderlik Orlandoya məxsusdu. Disneyland ilə məşhur bu şəhər yer üzündə uşaqlar üçün cənnət hesab olunur. Bu, Orlandonu dünyanın təkcə ən əyləncəli yox, həm də ən çox səyahət edilən şəhərlərindən biri edir. Şəhərin yaranma tarixi 1838-ci ilə təsadüf edir. 20-ci əsrin ortalarına qədər sənaye bölgəsi kimi tanınıb. İndiki vaxtda universal Studio Orlando, Gaterland, See World, alt Disney World parklarından və NBA məşhur basketbol komandası Orlando Məcikin məbədi Amway Centerdən ibarətdir. Bu bölgə su parkları ilə məşhurdur. Yerli və xarici turistlərin ən məşhur cəlbedici yerlərindən biridir. İl boyu hər il səyahət edilə biləcək və subtropik iqlim sayəsində, zövq alınası bir şəhərdi. Ziyarət olunacaq yerlərin əksəriyyəti istirahət parklarından ibarətdir. Şəhərin planlaşdırılması və arxitekturası tamamilə istirahət turizminin inkişafına əsaslanır. "Volkano" adlı su aquaparkı Orlandonun ən görməli yerlərindəndir. Ərazisi o qədər böyük idi ki, səhər saat 09:00-dan 17:00-a qədər ərazinin yarısını belə gəzib qurtara bilmədik. Axşam saatlarında turistlərin sevilən yeri olan balaca bir şəhərciyidir. Bizim İçərişəhərə bənzəyir, şəhər içində kiçik bir şəhər. Amma öz qədimliyi ilə seçilmir. Bakının İçərişəhəri daha qədim tarixə malikdi. Burada müxtəlif irqlərdən və dünyanın dörd bir tərəfindən gələn insanların musiqilərini, rəsm əsərlərini və rəqslərini görmək mümkün idi. Bura müxtəlifliyi ilə seçilən parkdı. Hətta mən deyərdim ki, müxtəlif mədəniyyətlərin toqquşduğu bir parkdı. Bütün bunlar Amerikanın yalnız üç şəhəri haqqında səyahət zamanı aldığım təəssüratlardır.

**Vüqar BABAXANOV.**

*Cəfər Cabbarlı - 120*

# Kiçik səhnənin böyük istedadları

**Təşəbbüskarlıq, yüksək təşkilatçılıq qabiliyyəti, peşəkarlıq hər bir insana uğur gətirir. Rəhbər işçi üçün isə bu keyfiyyətlər daha vacibdir. Əgər belə olmasaydı, Bakıdakı 38 saylı görmə qüsurlu uşaqlar üçün musiqi məktəbinin kollektivi bu qədər uğur qazana bilməzdi. Vaxtilə buranın şagirdi olan Esab Əliyevin rəhbərliyi ilə müəllim və şagirdlərin yaradıcılıq imkanlarının üzə çıxarılması, istedadlı şagirdlərin daha yaxşı çalışması, onların istər ölkə ictimaiyyəti, istərsə də beynəlxalq səviyyədə tanıdılması istiqamətində görülən işlər öz müsbət nəticəsini verir. Məhz buna görədir ki, yaradıcılıq müsabiqələrində yüksək yer tutan şagirdlərin sayı durmadan artır.**



Musiqi məktəbinin artıq öz ənənələri formalaşmışdır. Mədəniyyət sahəsində xidmətləri olan şəxsiyyətlərin yaradıcılıq gecələrinin, yubiley tədbirlərinin keçirilməsi artıq bir ənənəyə çevrilib. Bu tədbirlər eyni zamanda gələcəyin musiqi xadimlərinin yetişməsi üçün zəmin yaradır.

Növbəti XX əsr Azərbaycan ədəbiyyatının klassik sənətkarlarından biri, qələmini həm şeir, həm nəsr, həm də dramaturgiya sahəsində sınayan Cəfər Cabbarlının 120 illik yubileyinə həsr olunmuş tədbir də bu qəbildəndir. Tədbirin aparıcısı məktəbin müəllimi Kifayət Mikayılova iştirakçıları salamladıqdan sonra böyük dramaturqun həyat və yaradıcılığına qısaca ekskurs edərək dedi: "Yaradıcılığa "Məktəb" jurnalında çap olunan "Bahar" adlı şeirlə başlayan C.Cabbarlı daha çox lirik-romantik və satirik şeirlər yazmışdır. Onun satirik şeirləri Sabir üslubundadır. Bu tipli şeirlərini o, "Babayi-Əmir" satirik jurnalında çap etdirirdi.

C.Cabbarlının ən məşhur lirik şeiri "Ana"dır. Şair bu şeirində ananın böyüklüyünü, müqəddəsliyini göstərmiş, bu zərif vücud qarşısında ən qüvvətli insanın belə gücsüz olması qənaətinə gəlmişdir:

*Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,*
*Uçar səmalara o aləmi-xəyalətdə*
*Yatar, ölər bədənim, nitqdən düşər bir söz:*
*- Ana... Ana... Sənə mən rahibəm itaətdə!..*

Humanizm, insan taleyinə acımaq, sosial ədalətsizlik şəraitində insanın üzləşdiyi facie və iztirabları göstərmək C.Cabbarlının ilk pyeslərinin əsas mövzusu idi. "Vəfalı Səriyyə, yaxud göz yaşı içərisində gülüş", "Solğun çiçəklər", "Nəsrəddin şah", "Ədirnə fəthi", "Ulduz", "Aydın", "Almas", "Yaşar", "Dönüş" və s. onun yaradıcılığının zirvəsi sayılan dram əsərləridir.

C.Cabbarlı 20-30-cu illərdə yazdığı dram əsərlərinin çoxunun mövzusunu müasiri olduğu həyatdan götürmüşdür. "Sevil" pyesində (1928-ci il) dramaturq əsərin baş qəhrəmanı olan Sevilin simasında Azərbaycan qadınının yüksəliş yolunu, keçmişin ağır yükündən xilas olmasını təsvir edir.





C.Cabbarlı 1899-cu ildə Bakının Xızı kəndində anadan olmuş, 1934-cü il dekabrın 31-də Bakıda vəfat etmişdir.

1953-cü ildə dahi bəstəkar Fikrət Əmirov "Sevil" pyesi əsasında opera yazmış, 1970-ci ildə isə film çəkilmişdir. Bu il C.Cabbarlının anadan olmasının 120, operanın yazılmasının 66 illiyi tamam olur. Bu ilin yanvar ayında dövlət başçısı İlham Əliyev C.Cabbarlının 120 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalamışdır. Sərəncama əsasən təhsil və mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilir. Kollektivimiz isə şagirdlərin ifasında "Sevil" operasının tamaşaya qoyulmasını planlaşdırdı. Bu, bizim yubiley hədiyyəmizdir".

Sonra söz şagirdlərə verildi. IX sinif şagirdləri Gülnaz Talıbova, Səməd Novruzov, Nərmin Əliyeva və başqaları yüksək peşəkarlıq nümayiş etdirərək öz ifaları ilə tamaşaçılara gözəl anlar yaşatdılar.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nəzdindəki görmə qüsurlu uşaqlar üçün 11 illik musiqi məktəbinin direktoru Esab Əliyevə söz verildi. Məktəbin şagirdlərinin uğurlarından danışarkən o dedi: "Ötən tədris ilində məktəbimizi 45 məzun bitirmişdir. Məzunlarımızdan Nurlan Əhmədov Azərbaycan Dövlət Milli Konservatoriyasına daxil olmuşdur. Hazırda şagirdlərimiz iyun ayının 1-də xalq çalğı alətləri üzrə respublika və fortepiano üzrə keçiriləcək beynəlxalq müsabiqəyə ciddi hazırlaşırlar.

Bugünkü tədbir isə əsl sənət bayramı, respublikamızda musiqi məktəbləri arasında ilk hadisədir. Nəzəriyyə şöbəsinin müəllimi Sevinc Məmmədova, müəllimlərimiz Arzu Teymurova, İlqar Əhmədov, Kifayət Mikayılova və Vüsalə Əliyevanın təşkilatçılığı ilə şagirdlərin hazırladığı "Sevil" operası yüksək peşəkarlıqla təqdim olundu. Mən burada əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm".

Sonra Ü.Hacıbəyli adına Musiqi Akademiyasının müəllimi, musiqişünas Xatirə Həsənzadə, Milli Konservatoriyanın müəllimi Ramiz Əzizov, Amerikada yaşayan soydaşımız, məşhur qarmon ifaçısı Əhəd Əliyevin nəvəsi Sevinc Sultanzadə - Fon Brüsseldorf, 5 saylı respublika xüsusi internat məktəbinin direktoru İradə Vəzirova və başqaları çıxış edərək iki böyük şəxsiyyət - C.Cabbarlı və Fikrət Əmirovun yüksək sənətkarlığının nəticəsi olan "Sevil" operasının iştirakçılarının istedadından danışdılar. Böyük sevgi ilə hazırlanan tamaşanın hər kəsdə kövrək hisslər oyatdığını dedilər: "Azərbaycan torpağı hər zaman böyük şəxsiyyətlər, sənətkarlar yetişdirib və bu gün də yetişdirir".

5 saylı respublika xüsusi internat məktəbinin direktoru İradə Vəzirova dedi: "Mən bu uşaqların istedadına bələdəm. Bu gün isə mən onlara bir daha heyran oldum. Səsiniz daha böyük səhnələrdən gəlsin. Siz buna layiqsiniz. Biz bu gün fiziki cəhətdən qüsurlu olan bu balaların içlərindəki hiss və duyğularını, daxili aləmlərini açıq gördük. Sizə işıqlı gələcək arzulayıram!".

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Cəlil Məlikov çıxışlara yekun vuraraq fikrini belə ifadə etdi: "Mən hələ də tamaşadan aldığım təəssüratların, keçirdiyim hisslərin təsiri altındayam. Bu dərəcədə yüksək ifa adama qürur hissi yaşadır. Səmimi deyirəm, bu gənc istedadlar həyata sevgimi bir az da artırdı. Burada şagirdlərin ifasında "Sevil" operasının daha geniş tamaşaçı qarşısında, böyük səhnədə oynanılması bir arzu, istək kimi səsləndirildi. Mən isə bunu kollektiv qarşısında sözün yaxşı mənasında tələb kimi qoyuram. Hər cür dəstəyə hazırıq".

Sonda tədbirin təşkilatçılarına, tamaşanın iştirakçılarına hədiyyələr təqdim olundu, xatirə şəkli çəkdirildi.

**Zümrüd QURBANQIZI.**
**"Respublika".**

# Vətən naminə xidmət şərəfdir

Xalq şairi, akademik Bəxtiyar Vahabzadə demişdir:

"Təyyarənin uçmağına enerji lazım olduğu kimi, insanın da yaşaması üçün ona od gərəkdir, ürək odu! Bu od isə yalnız sevgidir! Vətən sevgisi!"

Yer-göy titrəyir, atəş səslərindən qulaq tutulurdu. İgid əsgərlərimiz qorxu bilmədən düşmənin üzərinə yeriyir, güllə yağışının altında addım-addım irəliləyirdi. Geri çəkilmək, bir qarış torpağı belə itirmək olmazdı. Son nəfəsədək vuruşmaq! Cəsur komandirin dəstəsi səngərdən-səngərə keçərək mövqeyini möhkəmləndirir, düşmənə son zərbəni endirib onu susdurmaq, bir addım da olsa, önə keçmək istəyirdi. Əsl ölüm-dirim savaşı gedirdi. Sıraları seyrəlsə də, döyüş ruhu azalmır, intiqam hissi daha da güclənirdi: İrəli! İrəli!.. Bu, Əlinin səsi idi. Ölümdən qorxmayan, onun gözünə dik baxan qəhrəmanımızın. Bu döyüşə də qələbə ümidilə yollanmışdı səngəri özlərinə məskən seçən döyüşçü yoldaşlarıyla. Gedərkən söz vermişdi həyat yoldaşı Rəna xanıma əvvəlki döyüşlərdə olduğu kimi, bu dəfə də sap-sağlam evə dönəcəyinə. Bilmirdi ki, taleyinə şəhidlik də yazılıb...

Uşaqkən atası geoloq Hüseyn Məmmədovla birgə qarış-qarış gəzib vurğunu olduğu Vətəninin torpaqlarını qorumaq yolunda canını fəda etməkdən çəkinmədi: İrəli!-deyib, səngərdən çıxdı. Bu, onun son hayqırtısı idi, düşmən snayperi onu hədəfə almışdı... Ona köməyə gəlmək istəyən yoldaşlarına: "mövqeyi əldən verməyin, mənə heç nə olmaz!"- dedi.

Yaralı köksündən axan qan torpağa qarışır, ətraf gözlərində qaralır, həyat yavaş-yavaş sönürdü...

...Kadrlar dəyişir, onlar Əlinin ömrünün müxtəlif anlarından xəbər verir, həyatı göz önündən gəlib keçir. Şəhidlik zirvəsinə ucalan qəhrəmanımızın çətin və keşməkeşli ömür yoluna qismən də olsa, çıraq tutan 30 dəqiqəlik filmin son kadrları görünür... Şəhidlər xiyabanı. Burada sakitlikdir, nisbi sakitlik. Əlinin son mənzili, doğmaları yenə də məzar başındadır. Sıralanan qara daşların birindən də o boylanır: Əli Hüseyn oğlu Məmmədov. Bu adi daşlar deyil, o daşların altında çiçək açmayan arzular, nakam ömürlər uyuyur. Deyirlər, bu qara daşlar da bir gün göyərəcək. Ana torpaqlarımız döyüşdən qələbə ilə çıxan son şəhidimizi öz qoynuna alanda, qələbə bayrağımız azad olmuş torpaqlarımızda dalğalananda...

"Salnamə" sənədli-bədii filmlər studiyasının növbəti "Taleyin sınağında" filminin ssenari müəllifi, kinossenarist, publisist Rəfiqə Məsuddur. Bütün şüurlu həyatını mətbuata həsr edən Rəfiqə Məsudu oxuculara təqdim etməyə əslində ehtiyac yoxdur. Sənəti ilə insanların qəlbində vətənpərvərlik, xeyirxahlıq, humanistlik hissini alovlandırmağı bacaran və özü də bu hisslərlə yaşayan bu yaradıcı xanımın ilk qələm təcrübəsinin, ilk imzasının şirinliyini daddığı vaxtdan 54 il keçir, yəni yarım əsrdən çox. 1965-ci ildən "Azərbaycan qadını", "Azərbaycan gəncləri", "Sovet kəndi", "Bakı", "Baku" qəzetlərində müntəzəm çıxış etməyə başlayan Rəfiqə Məsud 1978-ci ildən jurnalistlik fəaliyyətini Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində davam etdirir. 1998-ci ildə "Telefilm" yaradıcılıq birliyində baş redaktorun müavini vəzifəsində işləyir və əsl yaradıcılıq nümunələri də burada həyata vəsiqə alır.

Yaradıcı insanların sənət taleyi, sənətə gəlişi bəzən bir-birinə çox oxşayır. Bu, ya təsadüf olur, ya da zərurətdən doğur, ancaq hər bir halda istedad öz sözünü deyir. Uzun illərdən bəri jurnalistlik fəaliyyətini iki istiqamətdə: mətbuat və televiziyada inkişaf etdirən Rəfiqə xanım üçün oxucularının, böyük tamaşaçı auditoriyasının nəbzini tutmaq, mövzu rəngarəngliyi ilə diqqəti cəlb etmək o qədər də asan olmayıb. Elə mənəvi gücü də oxucularından, tamaşıçılardan alıb həmişə.

Yazı-pozu ilə məşğul olan insanlar cəmiyyətin dəyərli üzvləri, sirli-sehirli dünyamızın soraq verənləri hesab olunurlar, çünki yazıb-yaratdıqları nəsillərin formalaşmasında müəyyən rol oynayır. Məhz bu baxımdan ssenari müəllifi olduğu sənədli-bədii filmlərdə ədəbi-bədii şəxsiyyətlər - elmimizin, ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında xidmətləri olan vətən övladlarının gələcək nəsillərə örnək olan zəngin yaradıcılıqlarını, həyatlarının maraqlı məqamlarını əks etdirir, onları tarixiləşdirir.

İlk sənədli-bədii filmini akademik Həsən Əliyevə həsr edən Rəfiqə Məsud onu belə də adlandırıb: "Torpağa bağlı ömür". Filmdə torpaqşünas, təbiətşünas, coğrafiyaşünas alimin zəngin, mənalı ömür yoluna işıq salınır. Hər birini övladı kimi sevdiyi "Dan ulduzu-tale ulduzu", "Ürəkdən-ürəyə", "Mirvarid", "El taleyi yaşayan ömür", "Şəkidə toy", "Şeirin Xəzrisi", "Sualtı sərvətimiz", "Ömürdən qalan izlər", "İlmələrdə yaşayan ömür", "Muğam", "Vokal", "Vurğun ocağı", "Qara Qarayev", "Bir ocağın nurunda" və s. filmlərinin qəhrəmanları da bu torpağın qürur duyduğumuz övladlarıdır.

Rəfiqə xanımın "Tarixin yaddaşı: Bakı sammiti" filmi rus, ingilis və ərəb dillərinə tərcümə olunaraq bir çox ölkələrdə nümayiş etdirilib: "Daim qlobal sülhə nail olmaq yalnız dövlət və hökumət başçılarının yox, bu, həm də din liderlərinin və vətəndaş cəmiyyətlərinin məsuliyyətidir"- deyən müəllif Azərbaycanda keçirilən dünya din liderlərinin Bakı sammitini bu müqəddəs məqsədə doğru atılan böyük bir addım kimi dəyərləndirir.

Qafqaz Müsəlmanları İdarəsinin rəisi Şeyxülislam Allahşükür Paşazadə mədəniyyət nazirinə ünvanladığı məktubda da filmə yüksək dəyər verir: "Bakı sammiti haqqında "Tarixin yaddaşı: "Bakı sammiti" adlanan uğurlu filmin hazırlanması münasibətilə sizə və filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə, xüsusilə "Salnamə" studiyasının rəhbərliyinə və əməkdaşlarına təşəkkürümü bildirirəm".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə" 2007-ci il 28 iyul tarixli sərəncamından sonra ona bu mövzuda film hazırlamaq tapşırılır. Bir müddət sonra o, Korrupsiyaya qarşı Mübarizə İdarəsi ilə birgə 35 dəqiqəlik "Korrupsiyaya qarşı hamılıqla mübarizə" adlı sənədli film hazırlayıb tamaşaçılara təqdim edir. Film yüksək səviyyədə alındığına görə Respublika Prokuroru Zakir Qaralov mədəniyyət naziri Əbülfəs Qarayevə təşəkkür məktubu göndərir.

Məktubda deyilir: "Korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə aparılan tədbirlərin ictimaiyyətə çatdırılmasında dəyərli vasitə olacaq. "Korrupsiyaya qarşı hamılıqla mübarizə" filminin ərsəyə gəlməsində ssenari müəllifi Rəfiqə Məsud və bütün yaradıcı heyət üzvlərinin xüsusi əməyinin olduğunu nəzərinizə çatdırmağı məqsədə müvafiq hesab edirik".

Son vaxtlar Rəfiqə Məsud film yaradıcılığında bir mövzuya daha çox yer ayırır: şəhidlik zirvəsinə ucalanlar: "Azərbaycanlı Yura" (Yura Kovalyov), "Cəsur döyüşçü" (Vəzir Orucov), "El təəssübü, vətən məhəbbəti" (Fazil Mehdiyev), "Haqqa söykənən həyat" (Asif Məhərrəmov-"Fred" Asif), "Vətənim mənim" (Koroğlu Rəhimov), "Ömrün şah zirvəsi" (Nizami Məmmədov), "Adadan başlayan yol" (Muxtar Qasımov), "Elmar Edilov", "Mübariz İbrahimov", "Rasim İbrahimov", "Taleyin sınağında" filmi isə Əli Hüseyn oğlu Məmmədova həsr olunub.



Onu da deyək ki, "Azərbaycanın Milli Qəhrəmanları" seriyasından milli qəhrəmanlar haqqında film çəkmək barədə "Salnamə" sənədli-bədii filmlər studiyasına təklifi də məhz Rəfiqə xanım etmiş, layihəni də özü hazırlamışdı. Həmin vaxtdan böyük bir yolculuğa çıxaraq o, qürur duyduğumuz şəhidlik zirvəsinə ucalan, ölümsüzlük qazanan igid oğullarımızın ruhu qarşısında vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə çalışır. Bu ekran, sənət əsərlərinin hər biri bu günümüzün qəhrəmanlıq dastanı, sözün əsl mənasında tarixi salnamədir.

Bu filmlər ürək ağrısı ilə yaranır. Ssenarist qəhrəmanının ailə üzvləri, yaxınları döyüşçü yoldaşları ilə görüşür, heç nəyi, heç bir məqamı, hadisəni nəzərdən qaçırmır. Dinləyir, qeydlərini aparır, zahirən sakit görünsə də, bəzən eşidib-gördükləri köksünü param-parça edir. Çox vaxt ssenari üzərində sübhədək işləyir, göz yaşlarında boğula-boğula.

Azərbaycan kinosu uzun illər ərzində şərəfli bir yol keçmişdir. Onun yaxşı günləri də çox olub, çətin günləri də. Bu illərdə müxtəlif janrlarda filmlər çəkilib, istehsal olunan hər bir film kino sənətimizə uğur qazandırıb. İstər bədii, istərsə də sənədli filmlərimiz beynəlxalq kinofestivallarda iştirak edib, mükafata layiq yerlər tutub. Kinematoqrafçılarımız bu gün müstəqil Azərbaycan kinosunun inkişafı naminə, onun dünya sənəti aləmində layiqli yer tutması üçün daha böyük əzm və həvəslə çalışırlar. Bir sözlə, onlar tarixi həm yaşadır, həm də yaradırlar. Rəfiqə Məsud da sənədli-bədii filmlərimizin, publisistikamızın məhsuldar, cəfakeş müəlliflərindən biri və bu çətin sənət yolunun bələdçisidir.

Rəfiqə xanım hazırda növbəti film üzərində işləyir. "Nakam tale" adlanan bu filmin qəhrəmanı isə 21 yaşında şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanı Vüqar Tofiq oğlu Hüseynovdur.

Rəfiqə Məsud uzun illər YAP Binəqədi rayon təşkilatında İdarə Heyətinin üzvü olmuşdur, hazırda isə Siyasi Şuranın üzvü kimi ölkədə keçirilən seçkilərdə fəallıq nümayiş etdirir. YAP Binəqədi rayon təşkilatı onun əməyini həmişə yüksək qiymətləndirmişdir.

Bununla belə, Rəfiqə xanım bir sənətkar ömrü yaşayır. Ömürlərə ömür qatıb yeni-yeni sənət nümunələri yaradır, ürəyinin odu, vətən sevgisi ilə... Bundan sonrakı yaradıcılıq işlərində ona uğurlar arzulayırıq...

**Z.ABDULLAYEVA,**
**"Respublika".**

# Nəsimi poeziyası insanın dünyanı dərk işığında

**Klassik Azərbaycan poeziyası kəhkəşanında İmadəddin Nəsimi ulduzu onilliklər, yüzilliklər keçsə də, yenə də parlaq yanmaqdadır. Bu il ölkə Prezidenti tərəfindən elan olunmuş Nəsimi ilində şairin yubileyinin keçirilməsi ana dilində yaranmış klassik Azərbaycan poezisiyasının bayramı kimi qeyd olunacaqdır. Tariximizin ən mürəkkəb və qeyri-sabit dövründə payına yaşamaq düşən Nəsimi mövcud problemlərin məngənəsində boğulsa da, şairin içində boy verən azadlıq eşqi onun yaradıcı ilhamının ən mühüm daşıyıcı faktoru kimi ortaya çıxmışdır. Nəsiminin mövcud despotik cəmiyyətə qarşı etirazı onun qiyamçı poeziyasının əsasını təşkil etmişdir. Nəsimi hər şeydən öncə yaşamın mahiyyətinə nəzər salıb, insanın dünyada yerini, onun Allahla bağlılığını göstərməyə səy etmişdir.**

Nəsiminin həyat fəlsəfəsində insanın daxilən təmizlənməsi ön plana çəkilirdi. Buna görə də dünyanın özünə münasibət ona verilən dəyərdən irəli gəlirdi:

*Dünya çün mürdardır, igrən könül, mürdardan!*
*Gül degil dünya, tikandir, nə umarsan xardan?*

*Dünyada bir yar vəfalı kimsənə görmüş degil,*
*Fariğ ol barı, nə hasil şol vəfasız yardan?*

Nəsimi nəinki bu beytlərdə, həm də digərlərində şeir və qəzəllərinin dilində elə bir poetik vüsətdən istifadə edirdi ki, onun hər bir söz və ifadəsinin ehtiva etdiyi altməna haqqında daha çox düşünməyə çalışırsan. Böyük mütəfəkkirin fikrincə Həqiqəti dərk etmək üçün insan varlıqda mövcud olan bütün şeylərin hamısından əl çəkməli idi. Çünki maddiyyat dalınca getmək insanı aldadıb haqq yolundan sapındırmağa meyil etdirir.

Nəsimi yaradıcılığının dəyərli tədqiqatçısı M.Quluzadə hələ ədibin 600 illik yubileyi qeyd edilən dövrdə yazırdı: "Nəsiminin panteist - hürufi ideyalarını əks etdirən şeirləri, onun insan haqqındakı kredosu - insanın zəkası, kamalı, gözəlliyi haqqında gözəl himnlər yaratmışdır". Nəsiminin elə bir şeiri yoxdur ki, orada insanın qüdrəti, ülviliyi bu və ya digər dərəcədə coşqun bədii ehtirasla tərənnüm edilməsin. Bu ehtirası biz şairin "Allahü-əkbər, ey sənəm, hüsnündə heyran olmuşam" qəzəlindən də yaxşı görürük:

*Allahü-əkbər, ey sənəm, hüsnündə heyran olmuşam,*
*Qövsi-qüzehdir qaşların, yayına qurban olmuşam,*

*Üzündür ol cənnət gülü, boyun həqiqət sərvidir,*
*Eşqində mən bülbül kimi aləmdə dəstan olmuşam.*

*...Sufi mənəm, safi mənəm, kafi mənəm, şafi mənəm,*
*Ərni mənəm, heyran mənəm, dərd ilə dərman olmuşam.*

*Zahid mənəm, abid mənəm, asi mənəm, fasiq mənəm,*
*Mömin mənəm, kafir mənəm, mən külli-insan olmuşam .*

Nəsiminin təqdim etdiyimiz qəzəlindən göründüyü kimi, şairin insanpərvərliyi onun dini-fəlsəfi dünyagörüşünün hürufilik ideyalarına sadıqliyi ilə bağlı olmuşdur. Nəsimi gözəlin bütün atributlarını sadalamaqla, onun zahiri görkəmindən - hüsnündən, üzünün cənətqülü, boyunun həqiqət sərvi olmasından, eşqində bülbül kimi aləmdə dastana dönməsindən danışmaqla, özünün qazi, münkir, razı, sufi, safi, kafi, şafi, zahid, abid, ası, mömin, kafir, külli-insan, gah İsa kimi çər xüstünə oturmuş, gah Yusif kimi Müsirdə sultan, yaquti - kani-vəhdət olduğunu bildirməkdədir.

Nəsimi iç dünyasıyla Ulu Yaradanı zikr edirdi. Nəsimi Allaha sevgini sufizmə mahiyyəti ilə bağlı olan təfəkkür sahibləri kimi bütün vücudu ilə nümayiş etdirirdi. Allaha bağlılıq onun humanist mahiyyətində bərq vururdu. Nəsiminin Allaha bağlılığı üç ardıcıl dünya baxışının köməyi - sifizmin, panteizmin, hürufizmin işığında ortaya çıxırdı. Nəsiminin varlığı izahında onun dünyanın bütün naz-nemətlərindən əl çəkib, öz insan ehtiraslarını ibadətlə öldürməklə bərabər, statikliyə, passivliyə yuvarlanma yer almır, əksinə, onun bütün varlığı ilə insanın yer üzündəki xoşbəxtiyinə inanma üstünlük təşkil edirdi.

Onu da qeyd edək ki, bu xüsusiyyət Nəsiminin yaradıcılığının ikinci dövru üçün daha səciyyəvi olmaqla, bu dövrdə şairin eşq - məhəbbətlə bağlı duyğuları daha çox pərvaz edirdi. Qeyd etdiyimiz məqamları "Dün gecə bir dibər ilə eyşimiz məmur idi" qəzəlində axtaraq.

*Dun gecə bir dilbər ilə eyşimiz məmur idi,*
*Leykin ol xunxarə gözlər uyxudan məxmur idi.*

*Gözlərin süzmüş və üzmüş canını aşiqlərin,*
*Asılı zülfundə yüz min Şiblivü Mənsur idi.*

*...Zülfü sübhanəlləzi - əsra, biəbdi ayəti,*
*Yanağı üzrə müsəlsəl xətt ilə məstur idi.*

*Boyu tuba, üzü cənnət, adə kəlürcun qaşı,*
*Gözləri vənnəcm, anın sinəsi vəttur idi.*

*Həmnişin idi Nəsimi dün gecə bir yar ilə,*
*Könlü şadü, vəxti xürrəm, məclisi pürnur idi.*

Nəsiminin yarı, dilbəri, gözəli tərənnüm edən, onların gözəlliyinin mahiyyətini açmağa hesablanmış qəzəlləri yetərincədir. Böyük mütəffəkkir gözəlin və gözəlliyin tərifini elə orijinal ifadələrlə verir ki, gözümüz qarşısında gözəl az qala ilahi səviyyəsinə ucaldılır. Şair gözəlin təsvirini Allahın, Uca Yaradanın adı ilə bağlı elə bir kontekstə gətirir ki, onun vəsfi qeyri-adı yüksəkliyə çatır. Eyni zamanda insanlara Uca Yaradanın harada qərar tutuması ilə bağlı informasiya ötürür, Allahın harada qərar tutduğunu göstərib, öz nəzər nöqtəsini ortaya qoyur və özünün harada olduğunu söyləyir:

*Ey mana nahaq deyənlər, qandadır bəs yaradan?*
*Gəl gətir isbatını, kimdir bu şeyi yaradan?*

*...Gəl mana bir söyləgil kimdir sənin nitqində, kim,*
*Söyləyən, söylətdirən, eşitdirən hər yanadan?*

*Çünki hər şəhrin içində məscidü meyxana var,*
*Əhli-həq fərq eyləməz məscidləri meyxanadan.*

*Ol kim, özün bilmədi, düşdü cahana dərbədər,*
*Varlığın həq bilmədi, qurtarmadı əmmarədən.*

Bu misraların köməyi ilə şair sanki insanlarla dialoqa girir, Yaradanın, həyatın mahiyyətini onlara başa salmağa çalışır. Buna görə də qəzəlin digər beytlərində o, odun, suyun, torpağın yelin kim tərəfindən yarandığını, insanın nitqində daim kimin varlığının yer aldığını, söylənilənin, söylətdirənin, eşitdirənin kimliyini, bixəbərlərin isə dünyada avara-avara gəzdiklərini və özlərini tanımadığını, elə buna görə də "cahana dərbədər" düşdüyünə, "varlığın həq bilmədi"yinə görə müəmmalardan qurtarmadıqlarına işarət edir. Qəzəlin sonundakı iki beytdə isə şair sanki fikirlərinin möhürünü vuraraq deyir:

*Oynaram rəqqas olub çəngü dəfü tənbur ilə,*
*Çünki məndə şeş cəhət var, dönməzəm çarparadan.*

*Çün Nəsimi on səkkiz min aləmin məqsududur,*
*Kim bu dövrü bilmədi, sür ta çıxa dəvvarədən.*

Nəsiminin nəinki bu, həm də digər şeirlərinə diqqət yetirərkən görürük ki, şair öz dini-fəlsəfi ideyalarını insanlara olduqca səmimi və rəvan bir dillə çatdırmağa müvəffəq olur.

Nəsiminin iki cildliyinə daxil edilmiş əksər şeirlərinin poetik dili yetərincə oynaqdır. Onun qəzəllərinin leksikası yaşadığı dövrün bütün üstün xüsusiyyətlərini özündə əks etdirməklə xalq ifadələri, atalar sözü, zərbi məsəllər, türkinin bütün çalarını özündə saxlamaq baxımından diqqətəlayiqdır. Elə buna görə də H.Araslı şairin həyat və yaradıcılığına həsr etdiyi monoqrafiyasında Nəsiminin nəinki ana dilində yayılmış bədii ifadə, həm də ərəb və fars şeirinin ifadə vasitələrini tərcümənin köməyi ilə şeir dilimizi zənginləşdirdiyini qeyd etməkdə haqlıdır. Söylədiklərimiz bir daha təsdiqləyir ki, Nəsimi öz bədii-poetik obrazlı leksikası ilə klassik ədəbiyyatımızın fəlsəfi ideyalarının təbliğ olunmasında, insanın dünyanı dərk fəlsəfəsində əvəzsiz rol oynamışdır. Nəsimi yaradıcılığına qayıdışımız və baxışımız insanın dünyanı dərk etməsinə özünə xas fəlsəfi aspektdən yanaşması, onun ideyalarının fərqli leksik-poetik tutumda qeyri-adı palitrayla seçilməsi ilə bağlıdır. Bütün bu tərəflərinə görə Nəsimi poeziyası müasirliklə daha yaxından səsləşməkdədir.

**Nizami TAĞISOY.**




### ❑ DONALD TRAMP İPOTEKA KREDİTİ GÖTÜRÜB



ABŞ Prezidenti Donald Tramp 2018-ci ildə 5 milyon dollardan çox həcmdə ipoteka krediti götürüb. "Report" agentliyinin Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Prezidentin Maliyyə İşləri üzrə İdarəsinin hesabatında göstərilir.

Məlumata görə, illik hesabatda bankdan 5 milyondan 25 milyon dollara qədər ipoteka krediti alındığı göstərilir.

"Palm Beach Daily News" qəzetinin məlumatına görə, Donald Trampın oğulları prezidentin bacısından Floridada 18,5 milyon dollara 9 otaqlı ev alıblar.

"Röyters" agentliyinin yazdığına əsasən, bu evin alınması üçün ipoteka kreditinin həcmi 11,2 milyon dollar təşkil edib. Lakin bu kreditin dəqiq hansı hissəsinin Donald Trampa aid olduğunu demək mümkün deyil, çünki ABŞ prezidenti bu məlumatların əks olunduğu vergi bəyannaməsini dərc etmir.

Eyni zamanda, verilən xəbərə görə, hesabatda Trampın adına ümumilikdə 14 kredit olduğu qeyd olunub və onlardan üçü 50 milyon dollardan çox məbləğdədir.

Məlumat üçün qeyd edək ki, ümumiyyətlə, ABŞ-da hətta çox zəngin insanlar da ipoteka krediti götürürlər. Bu, ipoteka krediti üzrə faizlərin nağd vəsaitlərlə investisiyasının potensial gəlirlərindən adətən az olması ilə əlaqədardır. Məsələn, Floridadakı ev üçün kredit Trampa illik 4,5 faizlə verilib, biznes və ya səhmlərə qoyulan pul isə əhəmiyyətli dərəcədə yüksək gəlir qazandıra bilər.

### ❑ AVSTRİYALI DEPUTAT HİCAB QADAĞASINA ETİRAZ EDİB



Avstriyalı deputat Marta Bissman hicaba qoyulan qadağaya etiraz edərək ölkə parlamentinə hicabla gəlib. "Sputnik" informasiya agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, Marta Bissman parlament kürsüsündə başı örtülü vəziyyətdə çıxış edib.

Marta Bissman deyib: "Baş örtüyü taxdım, indi fərqli insanmı oldum? Bəli, mənə baxın, sizcə, nə dəyişdi? Hələ deputat sayıla bilərəmmi? O azad, feminist və məzhəbə bağlı olmayan qadın sayıla bilərəmmi? Müsəlman qadınlardan çox şey öyrənə bilərik".

Hökumətin hicab qadağasının təməl dəyərlərlə ziddiyyət təşkil etdiyini vurğulayan M.Bissman bildirib ki, hicab qadağası 1955-ci il tarixli Avstriya Dövlət Sazişi və Demokratik Federal Konstitusiyanın əsas prinsiplərini pozur.

Qeyd edək ki, İslam dininin rəsmən qəbul edildiyi və 700 mindən çox müsəlmanın yaşadığı Avstriyada ibtidai sinif şagirdlərinə (10 yaşadək) hicab taxmaq qadağan olunub. Bu barədə hətta ölkə parlamenti qanun da qəbul edib. "İbtidai sinif şagirdlərinin 10 yaşına kimi başlarını örtəcək şəkildə dini inancları təmsil edən paltarlar geyinməsi qadağandır", - deyə qanunda yazılıb.

Sənəddə o da vurğulanır ki, qanun pozuntusuna yol verən ailələr 440 avroyadək cərimələnəcək.

Başda Avstriya İslam Cəmiyyəti olmaqla, bir sıra qeyri-hökumət təşkilatları bu qanunun ləğvi üçün Konstitusiya Məhkəməsinə müraciət edəcəklərini bildirib. Onların fikrincə, bu qanun konstitusiyada bərabərlik prinsipinə ziddir.

### ❑ ERMƏNİSTAN QAZI BAHALAŞDIRANLARI AXTARIR



Ermənistan hökuməti Rusiyadan idxal edilən təbii qazın qiymətini kimin bahalaşdırdığını bu günədək tapa bilmir. "Report" agentliyinin məlumatına görə, bu barədə Ermənistanın "Jamanak" qəzeti xəbər verib.

Eyni zamanda, qəzetin məlumatına görə, hökumətə yaxın mənbə qazın qiyməti ilə bağlı Ermənistanla Rusiya arasında müzakirənin çox maraqlı məcrada keçdiyini bildirib.

Qəzet yazıb: "Baş nazirin müavini Mqer Qriqoryan Rusiyanın "Qazprom" şirkətinin nümayəndəsi ilə görüşüb. Ona bildiriblər ki, qazın qiyməti siyasi məsələdir və Kremllə razılaşdırılmalıdır. Bundan sonra Mqer Qriqoryan Kremlə üz tutub. Orada ona deyiblər ki, bu, iqtisadi məsələdir və onu "Qazprom"la danışmaq lazımdır. Odur ki, Ermənistan hökuməti qazın qiymətini kimin qaldırdığını hələ də başa düşə bilmir".

Məlumat üçün qeyd edək ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Rusiya bu ölkəyə təbii qazın min kubmetrini 150 dollardan 165 dollaradək bahalaşdırıb.

Tərəflər arasında qazın qiyməti ətrafında danışıqlar hələ 2018-ci ilin noyabrından başlayıb. Əvvəlki müqavilənin müddəti isə 2018-ci il dekabrın 31-də başa çatıb. Müqavilə müddətinin bitməsinə bir neçə gün qalmış Nikol Paşinyan yeni sazişin şərtlərinin müzakirəsi üçün Moskvaya səfər etsə də, buna nail ola bilməmişdi. Dekabrın 31-də isə məlum olub ki, Rusiya tərəfi qiyməti qaldırıb.

### ❑ İRANLI GENERAL: ABŞ-la MÜHARİBƏ ASTANASINDAYIQ



İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanı general Hüseyn Səlami ABŞ və onun müttəfiqləri ilə müharibə astanasına gəldiklərini açıqlayıb. "Sputnik" informasiya agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, hərbi mərasim zamanı çıxış edən general İslam inqilabının heç olmadığı qədər həssas bir dönəmdən keçdiyini bildirib.

Hüseyn Səlami deyib: "Düşmən bütün gücünü bizimlə qarşı-qarşıya gəlmək üçün istifadə etməkdədir. Bu proses İslam inqilabının taleyini müəyyənləşdirəcək". General ABŞ-ın artıq "qırmızı xətt"i keçdiyini də bəyan edib.

Bununla yanaşı, bildirilir ki, ABŞ Hərbi-Dəniz Qüvvələrinə məxsus idarə olunan raketlərlə təchiz edilmiş iki hərbi gəmi Birləşmiş Ştatlarla İran arasında münasibətlərin kəskinləşməsi fonunda Fars körfəzinə daxil olub. "USS McFaul" və "USS Gonzalez" gəmiləri hər hansı insidentlə və İranın sahil xidməti qüvvələri tərəfindən müdaxilə ilə üzləşmədən Hörmüz boğazından keçib.

Qeyd edək ki, ABŞ Dövlət Departamenti İraqda fəaliyyət göstərən şəxsi heyətə İranla gərginlikdən dolayı dərhal ölkəni tərk etmək üçün təlimat verib.

### ❑ KÖHNƏ HEYƏT YENİ PREZİDENTİ ÇƏTİN DURUMA SALDI



Ukrayna Ali Radasının spikeri Andrey Parubi parlament koalisiyasının öz fəaliyyətini dayandırdığını elan edib. "Sputnik" informasiya agentliyi bu barədə Rusiya mətbuatına istinadən məlumat verib.

Ali Radanın spikeri bildirib ki, "Xalq cəbhəsi" fraksiyası koalisiyadan çıxdığı üçün parlament koalisiyası artıq fəaliyyət göstərə bilməz.

"Xalq cəbhəsi"nin qərarı barədə isə fraksiyanın lideri Maksim Burbak məlumat verib. Onun sözlərinə əsasən, şəraitə uyğun olaraq yeni koalisiya yaradılmalıdır.

Ukrayna qanunvericiliyinə görə, koalisiyanın fəaliyyətinin dayandırılması avtomatik olaraq yaxın aylarda parlamentin buraxılmasını əngəlləyəcək. Bununla da, yeni seçilmiş prezident Vladimir Zelenskinin komandasının dilə gətirdiyi Ali Radanın buraxılması arzusu elə arzu olaraq qalacaq.

Eyni zamanda, xəbər verilir ki, Ukraynanın fəaliyyətdə olan dövlət başçısı Pyotr Poroşenko yeni seçilən Prezident Vladimir Zelenskinin andiçmə mərasiminin keçirilməsinin təmin olunması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, andiçmə mərasimi mayın 20-də, yerli vaxtla saat 10-da Ali Radanın binasında keçiriləcək.

### ❑ BRİTANİYA PARLAMENTİ İSLAMOFOBİYANI MÜZAKİRƏ EDİB



Böyük Britaniya parlamentinin İcmalar palatasında ölkədəki üç milyondan çox müsəlmanın həyatına təsir göstərən islamofobiyanın artması gündəmə gəlib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Birgə Parlament Qrupunun həmsədri və Fəhlə Partiyasından olan parlamentari Ues Stritinq iclasın açılışında Böyük Britaniya müsəlmanları ilə bağlı çıxış edərək, ölkədə müsəlmanları hədəf alan hücumlardan nümunələr göstərib və bütün tərəfləri islamofobiyanın irqçiliyin bir növü olduğunu qəbul etməyə çağırıb.

İslamofobiyanın necə yarandığına diqqət çəkən Ues Stritinq deyib: "Müsəlmanlara qarşı nifrət silah səsiylə deyil, məktəblərimizdə, iş yerlərimizdə və cəmiyyətlərimizdə nəzarət edilməyən və göz yumulan sadə bir qərəzlə başlayıraraq ölkə qəzetlərinin səhifələrində artır".

Eyni zamanda, iqtidardakı Mühafizəkarlar Partiyasından olan Dominik Qriv isə islamofobiyadan terrorla mübarizənin zərər görə biləcəyi fikrini diqqətə çatdırıb. ■

# Tarix fəlsəfəsi və humanitar elmlər sistemi

**Professor Qoşqar Cəlal oğlu Əliyevin çox ciddi və əhəmiyyətli problem olan tarix fəlsəfəsinin təhlilinə diqqət yetirməsi və bu barədə monoqrafiya çap etdirməsi önəmlidir. Son yüz ildə tarix fəlsəfəsi iki müxtəlif sahəyə bölünmüşdür: birinci, tarixi prosesin müəyyən varlıq sahəsi olaraq tədqiqi və dərk olunması, insanın tarixi mövcudluğunun başa düşülməsi ilə bağlıdır. Bu, tarix fəlsəfəsinin klassik formasıdır. İkincisi, tarixi idrakın təbiətinin refleksiyası, xüsusilə tarixin nəzəri dərk olunması ilə bağlıdır. Bu sahənin öyrənilməsi daha aktualdır. Tarixən götürülsə Azərbaycan filosofları tarixi problemlərə həmişə toxunmuşlar. Lakin onların ideya və fikirləri sistemləşdirilməmişdir, elmi predmet şəklinə düşməmişdir. Tarix fəlsəfəsi isə bu prosesin fəlsəfi mahiyyətinin dərk olunmasıdır. "Tarix fəlsəfəsi" terminini ilk dəfə Volter işlətmişdir. Sonralar Herder özünün "Tarix fəlsəfəsi üçün ideyalar" əsəri ilə fəlsəfi və ictimai-siyasi fikir üçün bir növ nəzəri-metodoloji zəmin yaratmışdır.**

Professor Q.Əliyevin "Tarix fəlsəfəsi" kitabının strukturu aşağıdakılardan ibarətdir.

Müəllif əsərinin "Tarixi proses və fəlsəfi refleksiya" adlanan fəslində: Tarix və fəlsəfi metodologiya, Tarixi biliyin fəlsəfi refleksiv modeli, Fəlsəfə və intellektual tarix, Tarixi proses və fəlsəfə kimi vətən fəlsəfi fikrində, demək olar ki, işlənməmiş problemlərin təhlilini verir. Bu fəsildə müəllif haqlı olaraq yazır: "Fəlsəfənin ən böyük xidməti bundadır ki, o, tarix elminin anlayışlar aparatından istifadə etməklə tarixi fikrin inkişafında yeni meyilləri aşkar edərək, insan reallığına daha dərindən nüfuz etmək məqsədilə yeni yanaşmalar və metodlar təklif edir" (s. 41).

Əsərin II fəslində Tarix fəlsəfəsinin ən mühüm problemlərindən biri olan "Tarixi epistemologiya" problemini ətraflı təhlil edir. Burada epistemologiya və tarix, tarixi təcrübənin idraki xüsusiyyətləri və fenemenologiyası və yeni ontologiya və tarix fəlsəfəsi kimi məsələlərin araşdırılmasının əhəmiyyətini göstərir. Yeni ontologiya və tarix fəlsəfəsi kimi çox az öyrənilmiş problemin müasir elmi-fəlsəfi metodologiya kontekstində araşdırılmasına cəhd göstərir və tədqiqatçıların diqqətini bu problemin daha dərindən öyrənilməsinə cəlb edir. Müəllif belə fikirdədir ki, elmi obyektivlik xatirinə, tarix fəlsəfəsi yeni ontologiya müstəvisində daha geniş və hərtərəfli izah olunmalıdır.

Əsərin "Avropada tarix fəlsəfəsinin təşəkkülü və inkişaf mərhələləri" adlanan fəslində "Avropasentizm və qlobal tarix, Antik və orta əsr tarix fəlsəfəsi, intibah dövrü və maarifçi tarix fəlsəfəsi mövzularının araşdırılmasına xüsusi diqqət yetirir. Əsərdə düzgün olaraq göstərilir ki, klassik alman fəlsəfəsinin fəaliyyəti işlənildiyi dövrünün mütəfəkkirləri "azadlıq və zərurət" konsepsiyası çərçivəsində tarixin yaradıcısı olan azad insanın roluna diqqət yetirilir. İnsanın tarixi taleyi probleminin işlənməsinə yanaşmada müstəsna əhəmiyyətli məsələ olduğu vurğulanır (s. 93).

Professor Q.Əliyevin "Tarix fəlsəfəsi" əsərində "Müsəlman Şərqində fəlsəfi biliklərin formalaşması və inkişafı kimi məsələlərə", o cümlədən "müsəlman təfəkkürünün tarixi-fəlsəfi əsasları", "müsəlman şərqinin fəlsəfi fikrində tarixi idrak problemi" və yeni tarix fəlsəfəsi: qloballaşma və nəzəri tarixi istiqamətlərinə xüsusi diqqət yetirmişdir. Əsərin "Azərbaycan tarix fəlsəfəsi: problemlər, perspektivləri" mövzusunda tədqiq edən müəllif əsasən "Azərbaycan tarix fəlsəfəsinin genezisi: ideyalar və tarixilik" məsələlərinə, "Orta əsrlər Azərbaycan tarix fəlsəfəsi: zamanın ideoloji ölçülərində" problemlərin araşdırılması ilə yanaşı qoyulan məsələlərin gələcəkdə daha da geniş aspektdə öyrənilməsinin aktuallığını və əhəmiyyətini əsaslandırır.

Müəllif tarix fəlsəfəsinin əksər problemlərinin işıqlandırılmasına ciddi cəhd göstərir. Bu sahədə Azərbaycan dilində yazılan ilk təcrübə olduğundan o, tədqiqatın məqsədinin aktuallığını və elmi-praktik əhəmiyyətini xüsusi qeyd edir. Müəllif tarix fəlsəfəsinə sosial fəlsəfənin bir hissəsi kimi baxır və qeyd edir ki, müasir şəraitdə tarix fəlsəfəsinin öyrənilməsinə çox böyük zərurət və ehtiyac vardır. Müəllifin fikrincə bu gün yeni metodlarla yanaşma keçmişə yalnız faktik material əldə etmək üçün deyil, həmçinin dəyərlərin dəyişmə dinamikasını dərk etmək üçün müraciət edilməlidir. A.Toynbi vaxtilə yazırdı ki, tarix bu günün tarixidir. Bunu o mənada anlamaq lazımdır ki, müəlliflər çox hallarda tarixi onlara necə sərfəlidirsə, eləcə də yazmağa çalışırlar. Əksər hallarda əsl tarixin real məntiqi inkişafı onları maraqlandırmır. Başqa sözlə, bəzi tədqiqatçılar dünyanı olduğu kimi deyil, onun bizə lazım olduğu kimi öyrənməyə səy göstərirlər. Tarix fəlsəfəsi "zamanda kollektiv dram" deyilən tarixi proseslərin fəlsəfi mənasını öyrənir. Türk xalqları tarixinin tədqiqatçısı Zəki Vahidi Toğan yazırdı: "Tarixi yazanlar onu yaradandan daha çox məsuliyyət daşıyırlar", yəni Şarl Monteskyenin "İran məktubları" əsərində qeyd etdiyi kimi "türklər tarixi yaratmış, ancaq onları yazmağı başqalarının öhdəsinə buraxmışlar". Tarixi yazanlar isə öz vicdanlarını itirəndə onu ermənilər kimi yozurlar (fikir ver: yazmır, ancaq yozur!), digər xalqların tarixləri zəminində süni surətdə özlərinə tarix "düzədirlər".

Bu kontekstdə bir neçə metodoloji məsələyə toxunmaq lazım gəlir. İlk növbədə tarixi dövrün mənasını və məzmununu dərk etmək vacibdir, başqa sözlə, araşdırılan dövrün xarakterini öyrənmək lazımdır. Azərbaycan tarix fəlsəfəsi məhz bu reallıqları yeni metodologiya əsasında öyrənməlidir. Dünya sosializm sistemi çökəndən sonra planetdə liderlik iddiasında olan ABŞ-la yanaşı, yeni güc mərkəzləri yaranmışdır. Azərbaycan gerçəkliyinə gəldikdə isə deməliyik ki, son illərin təcrübəsinin göstərdiyi kimi Azərbaycanın iqtisadi potensialı, burada həyata keçirilən islahatlar onun hərbi cəhətdən və güclənməsi ölkədə yeni tarixi reallıqlar yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin konstruktiv daxili və xarici siyasəti nəticəsində Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutmuşdur. Ölkədə uğurla aparılan daxili və xarici siyasət xalqın maddi və mənəvi tələbatının ödənilməsinə doğru yönəldilmişdir.

Tarix fəlsəfəsi milli fəlsəfə, maarifçilik və millətin mənlik şüuru ilə əlaqədardır. Kitabda milli fəlsəfənin maarifçilik və milli ideya ilə qarşılıqlı əlaqəsini, Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikrində bizim üçün yeni olan bu elm sahəsinin önəmi göstərilir. Milli fəlsəfə deyərkən millətin min illərdən bəri yaratdığı milli-mənəvi dəyərlər nəzərdə tutulur. Müəllifin




fikrincə, maarifçilik isə onun tərkib hissəsidir, milli mənlik şüuru onun göstəricisidir.

Ulu öndər Heydər Əliyev deyirdi: "Xalq daim gərək öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın". XX əsr bəşər cəmiyyətinin tarixində ən təlatümlü dövr olmuşdur. İki dünya müharibəsi, milli və dini qarşıdurmalar, qloballaşma və antiqloballaşma prosesləri insanların həyatında əvvəllərdə olmayan sosial-siyasi, mədəni-mənəvi hadisələr törətmişdir. İnsan cəmiyyətlərində biri-birinə münasibətdə yeni-yeni problemlər yaranmış, adamların bir-birinə inamı və etibarı zəifləmişdir. Məhz bu kontekstdə tarix fəlsəfəsinin çox mühüm elm sahəsi kimi aktuallığı artır.

Təsadüf deyil ki, müəllif əsərində tarixi yaddaş və tarixi şüur problemlərinin təhlilinə geniş yer verilmişdir. Bu səbəbdən tarixi prosesin yenidən dərk olunması vəzifəsi əsərin əsas leytmotivini təşkil edir. Kitabın müəllifi belə bir konsepsiyadan çıxış edir ki, dünyanın məna və dəyər resurslarının tükənməsi tarixin yenidən dərk olunmasını daha da aktuallaşdırır. Müəllif tarix fəlsəfəsinin mahiyyətini məhz bunda görür və ona zəmanənin bir sosial sifarişi kimi baxır. Kitab deyilən problem üzrə ilk vəsait olduğuna görə, təqdirəlayiqdir, yayılmasını və təbliğ olunmasını tövsiyə edirik.

**Əlikram TAĞIYEV,**
**AMEA Fəlsəfə İnstitutunun "Məntiq" şöbəsinin müdiri, professor.**

# Bakıda keçirilən bədii gimnastika üzrə Avropa çempionatının ilk qalibləri müəyyənləşib

**Mayın 18-də Bakıda bədii gimnastika üzrə 35-ci Avropa çempionatının üçüncü günü maraqlı idman mübarizəsi şəraitində keçib.**




AZƏRTAC xəbər verir ki, çempionatın üçüncü günündə böyük gimnastlar fərdi proqramda gürzlər və lentlə yarışıblar. Turnirdə ölkəmizi Zöhrə Ağamirova və Veronika Qudis təmsil ediblər.

Z.Ağamirova gürzlərlə yarışda 20,800 xalla altıncı yeri tutaraq finala adlayıb. Onunla yanaşı, finalda rusiyalı əkiz bacılar Dina və Arina Averina, Katrin Taseva (Bolqarıstan), belaruslu Anastasia Salos, Ukrayna təmsilçisi Vlada Nikolçenko, sloveniyalı Yekaterina Vedeneva və israilli Nikol Zelikman mübarizə aparacaqlar.

Lakin gimnastımız lentlə yarışlarda 24-cü olub.

Veronika Qudis isə gürzlərlə yarışda 20-ci, lentlə hərəkətlərdə isə 30-cu yerdə qərarlaşıb.

Lentlə yarışların finalına Rusiya təmsilçiləri Aleksandra Soldatova, Dina Averina, bolqarıstanlı Katrin Taseva, Boryana Kalein, Belarus gimnastları Anastasia Salos, Katarina Xalkina, italiyalı Milena Baldassarri və israilli Nikol Zelikman yüksəliblər.

Z.Ağamirova çempionatın ikinci günündə halqa ilə yarışlarda finala vəsiqəni təmin edib.

Sonra gənclərdən ibarət qrup hərəkətləri komandaları çoxnövçülük yarışlarında beş lentlə çıxış ediblər. Azərbaycan millisinin çıxışı azarkeşlər tərəfindən böyük coşğu ilə qarşılanıb. Mədinə Əsədova, Ləman Əlimuradova, Selcan Hacızadə, Milana Əkbərova və Fəridə Səfiyarzadədən ibarət komandamızın çıxışı 17,300 xalla qiymətləndirilib. Gimnastlarımız bu göstərici ilə doqquzuncu pillədə yer alıblar. Komandamız ehtiyat finalçılar siyahısına düşüb. Rusiya, İsrail, Belarus, Ukrayna, İtaliya, İsveçrə, Litva və İspaniya yığmaları final mərhələsinə vəsiqə qazanıblar.

Xatırladaq ki, çempionatın birinci günündə komandamız beş halqa ilə yarışlarda finala vəsiqəni təmin edib.

Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub. Komanda yarışlarında Rusiya birinci, Belarus ikinci, Bolqarıstan isə üçüncü olub. Gənclərin qrup hərəkətləri proqramında çoxnövçülükdə isə Rusiya millisi fəxri kürsünün ən yüksək pilləsinə




qalxıb. Belarus ikinci, İtaliya isə üçüncü yerdə qərarlaşıb.

Mayın 19-da yekun vurulacaq çempionatın fərdi proqramında böyük gimnastlar, qrup hərəkətləri proqramında isə gənclərdən ibarət komandalar çıxış edirlər. Çempionata 35 ölkədən gimnastlar qatılıblar.

Bakı 2007-ci, 2009-cu və 2014-cü illərdə də bədii gimnastika üzrə Avropa çempionatına ev sahibliyi edib.

**AZƏRTAC**

## BİLDİRİŞ

"Azərtütün Aqrar Sənaye Kompleksi" MMC tərəfindən Balakən, Şəki, Qax və Zaqatala rayonlarında aqrotexniki xidmətlərin satın alınması üzrə 19 aprel 2019-cu il tarixində elan olunmuş təkliflər sorğusunun nəticəsi olaraq qalib seçilmiş fiziki şəxs Rəşidov Mustafa Cuma oğlu (32824.00 (otuz iki min səkkiz yüz iyirmi dörd manat 00 qəpik)) və fiziki şəxs Məmmədov Elnur Cuma oğlu (43268.00 (qırx üç min iki yüz altmış səkkiz manat 00 qəpik)) ilə 76 092.00 AZN (yetmiş altı min doxsan iki manat 00 qəpik; ƏDV daxil) məbləğində 08 may 2019-cu il tarixində müqavilə imzalanmışdır.

Lənkəran rayonunda fəaliyyət göstərən Çayçılıq istehsal kooperativinə məxsus möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

İmişli rayonu Qızılkənd kənd sakini Əliyev Şəhadət Yusif oğlu və ailə üzvlərinin xüsusi mülkiyyətində olan həmin kənddə yerləşən 2,78 ha torpaq sahəsinin torpağın mülkiyyətə verilməsinə dair JN 300 (KOD 90700108 nömrəli) dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Əzimova Emiliya Kemal qızının adına Bakı şəhəri, Səbail rayonu, Niyazi küçəsi, ev N5, mənzil N59 ünvanın Qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**"Azərbaycan" Nəşriyyatından Bəsti xanım, İlqar, Vüqar İsmayılovlar İslam və Vəfa Hüseyinzadələrə, əzizləri, professor**

**ORUC ABDULLAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat İnstitutu Mama ginekologiya kafedrasının kollektivi Elmi işçi Vəfa Hüseyinzadəyə, atası, professor**

**ORUC ABDULLAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Etibar Hümbətov, Tural Əliyev, Mahmud Davudov, Rasim Camalov və Cavanşir Hüseynov "Azərbaycan" Nəşriyyatının Sanitar Texniki Qovşağının rəisi Ənvər Şıxəliyevə, qardaşı**

**ŞİRVAN məllimin**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə baş başsağlığı verirlər.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Nəriman CAVADOV

● Çapa imzalanmışdır
18.05.2019